www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 iyul 2015-ci il Çərşənbə № 147 (6175) Qiyməti 40 qəpik

**Xəbər**

## Prokuror Suriyada döyüşən azərbaycanlılara 88 il cəza istədi

yazısı səh.3-də

**Gündəm**

### Jurnalistlə deputat arasında böyük qalmaqal



Eynulla Fətullayevin Rasim Musabəyov haqda yazısına qarşı tərəf sərt reaksiya verdi; sayt rəhbəri isə hüquq-mühafizə orqanlarına müraciət etdi

yazısı səh.6-da

### Liderlər namizədliklərini hansı dairələrdən verəcəklər?

yazısı səh.10-da

### Gəncədə Rəsulzadənin büstü hələ də gizlədilir

yazısı səh.7-də

### Ali Məhkəmə Tofiq Yaqublu ilə bağlı şikayətə baxmır

yazısı səh.3-də

### Partlayış olan zavodda yanan qadınlardan dördünün həyatı təhlükədədir

yazısı səh.4-də

### Əhali banklardan əmanətini kütləvi şəkildə çıxarır

yazısı səh.6-da

### Məmurlarımızla rus nazirlərin oyununda baş verənlərin ilginc təfərrüatları

yazısı səh.11-də

### Ölkə siyasətçilərinin sosial şəbəkədə aktivliyi azalıb

yazısı səh.10-da

### Türkiyə turizminin rus "itkisi"

yazısı səh.11-də

### Qazlı içkilər insanı öldürmür, amma...

yazısı səh.14-də

**Ramazan ayının 21-ci günü**

İftar 21.30 İmsaq (azan) 4.49 (QMİ)

21-ci günün duası: "İlahi, bu gün Öz istəkli əməllərinin yolunu mənə göstər! Belə bir gündə şeytanın istədiyi yolları mənim üzümə bağla və onu mənə qalib etmə! Məni cənnətdə məskunlaşdır və onu mənim üçün bir məskən qərar ver! Ey ehtiyaclı olan bəndələrin Ehtiyacını Ödəyən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Ukraynaya "qara para" axını

# OLİQARXLARIMIZ LVOVU ALIR - ÖZƏL XƏBƏRLƏR

Poroşenko "şişmiş oliqarxların" əl-ayağını yığmaqla ölkədə Rusiyanın maraqlarına xidmət edən böyük bir şəbəkənin əlindəki kapitalı hökumətin nəzarətinə alır, onların yerini isə azərbaycanlı varlılar tutur; məmur-oliqarxların bu cür işlərlə məşğul olan agentləri Qərbi Ukraynada az qala qarşılarına çıxan bütün obyektləri alırlar...




yazısı səh.5-də

## Obamadan Azərbaycanın da yerləşdiyi regiona İŞİD xəbərdarlığı

"Onların kökünü kəsmək vaxt aparacaq"; İŞİD-lə Azərbaycan xaricində mübarizə elə Azərbaycan üçün mübarizədir

yazısı səh.8-də



*Azər Əsgərov:*

### "Bunlar hakimiyyətə gəlsələr, bizi küçədə güllələyərlər"

yazısı səh.3-də



Həsən Əliyev

### Həbsdəki hakimdən prezidentə sensasion müraciət

yazısı səh.12-də



### Qarabağa köçən rus milyarderlə bağlı yeni təfərrüatlar

yazısı səh.9-da

# 8 iyul 2015

# Prezident Neftçala rayonuna 3 milyon manat ayırdı



**Prezident İlham Əliyev Neftçala rayonunun Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

AzərTAc-ın məlumatına görə, sərəncama əsasən, Maliyyə Nazirliyinə otuz yeddi min nəfər əhalinin yaşadığı 21 yaşayış məntəqəsini birləşdirən Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,0 (üç) milyon manatı Neftçala Rayon İcra Hakimiyyətinə ayrılmasını təmin etmək tapşırılıb.

Nazirlər Kabinetinə isə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# QAT- ın ofisində orduya yolasalma mərasimi oldu

**Qarabağ Azadlıq Təşkilatı (QAT) yeni bir təşəbbüslə çıxış edib. Qurumun mərkəzi ofisində gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib. İyulun 7-də QAT-ın gənc üzvləri İsmayıl Vəliyev və Aydın Cahangirov təntənəli şəkildə orduya xidmətə yola salınıblar.**

Tədbirdə ilk olaraq QAT sədri Akif Nağı çıxış edərək gənclərə uğurlu xidmət, qorxmazlıq, rəşadət, düşmənə nifrət hissinin daim güclü olmasını arzulayıb, sonra gənclərin hər birinə kiçik həcmli Quran nüsxələri bağışlayıb. Gənclər Quranı ürəklərinin üstündə gəzdirəcəklərini, müqəddəs kitabdan güc-qüvvət alacaqlarını, Vətənə ləyaqətlə xidmət edəcəklərini bildirib, Allahdan onların qismətinə döyüş taleyinin yazılmasını, Vətən yolunda ya şəhid, ya da qazi olmalarını istəyiblər.

Daha sonra QAT Ağsaqqallar Şurasının üzvü Hacı Hacıağa Nuri gənclərə xeyir-dua verib, gəncləri Qurani-Kərimin altından keçirərək Allahın onlara həmişə yar olmasını arzulayıb. Sonra tədbir iştirakçıları Nadir Ağayev, Xudu Xudiyev, Qələndər İsmayılov, Fəridə Əsgərova, Səyyarə İsmayılova, Nəsib Cəfərov, Yusif Cəfərov, Füruzə Əsədullayeva, Cəfər Baxış, Solmaz Alıyeva, Mehriban Abbasova, Əlibala Məmmədov, Hacı Akif Heydərli, Hacı Eldar və digərləri çıxış edərək gənc əsgərlərə ürək sözlərini deyib, uğurlar arzulayıblar. Tədbirin gedişində Səyyarə İsmayılova və İsmayıl Məmmədov vətənpərvərlik şeirləri deyib, döyüş ruhlu mahnılar oxuyublar. Sonda tədbir iştirakçıları xatirə şəkli çəkdiriblər.

❑ **Cavid TURAN**

# "Skype"dakı nasazlıq aradan qaldırıldı

## Osman Gündüz: "Çox güman ki, bu nasazlıq texniki məsələlərlə bağlı olub"

**Bir neçə gündür ki, Azərbaycanda səs, mətn və videogörüntünü təmin edən "Skype" internet proqramının fəaliyyətində ciddi problemlər yaranmağa başlayıb. "Proxy" proqramları vasitəsilə "Skype"dan maneəsiz istifadə etmək mümkündür. Maraqlıdır ki, bu problem günorta saatlarından Azərbaycandakı əksər internet provayderlərinin şəbəkəsində müşahidə olunub.**

Həmçinin bildirilir ki, proqrama daxilolma uğurla həyata keçibsə, sonrakı mərhələdə - proqramın işində problem əsasən yaranmır. Lakin veb-brauzer vasitəsilə login.skype.com səhifəsinə daxil olmaq mümkünsüzdür və bu, proqramın istifadəsinin məhdudlaşdırıldığını göstərib. Xatırladaq ki, bir sıra ölkələrdə "Skype" vasitəsilə bir çox ekspertlər danışdırılır, müsahibələr alınır.

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz bu problemin müvəqqəti texniki bir problem olduğunu dedi:** "Mən "Skype" testdən keçirdim. "Skype" daxil olmaqda, zəng etməkdə və mesaj göndərməkdə hansısa bir problem yoxdur. Çox güman ki, bu nasazlıq texniki məsələlərlə bağlı olub. Mənim ilkin müşahidəm ondan ibarətdir ki, mən "Skype-dən istifadə etdim və orada hansısa məhdudiyyət görmədim".

❑ **Günel MANAFLI**

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Yadigar Sadıqovun müalicəsi yarımçıq qalıb

**Müsavat Partiyası başqanının həbsdə olan müavini Yadigar Sadıqovun səhhətindəki problemlər olduğu kimi qalır.**

Bu haqda modern.az saytına onun hüquqlarını müdafiə komitəsinin sədri Elman Fəttah məlumat verib: "Onun xroniki ürək problemi var. Mütəmadi müvafiq dərmanların qəbulu vəziyyətin ağırlaşmasının qarşısını alır.

Penitensiar Xidmətin müalicə müəssisəsində 10 günlük müalicədən sonra səhhətində xüsusi ağırlaşma müşahidə olunmayıb. Müayinə zamanı Yadigar Sadıqovun müalicəyə ehtiyacı olduğu haqqında qərar verilib və müalicə müəssisəsinə köçürülüb. Sonradan müalicəsini yarımçıq saxlayaraq cəzaçəkmə müəssisəsinə geri qaytarıblar".



**Elman Fəttah Yadigar Sadıqovun gümrah və mübariz əhval-ruhiyyədə olduğunu deyib:** "Həbsinin 2 ili tamam oldu. Bu vaxta qədər bir neçə məhkəməsi olub. Cəzasının çəkilməmiş hissəsinin başqa cəza ilə əvəz edilməsi və həbsinin ikidə birini başa vurduqdan sonra azadlığa buraxılması ilə bağlı verilən vəsatətlər məhkəmədə əsassız olaraq rədd edildi. İndi həmin ərizə Apelyasiya Məhkəməsinə təqdim olunub. Yadigar bəy hüquqları ilə bağlı mübarizəsini həbsxanada da davam etdirir".

**Elman Fəttahın sözlərinə görə, Yadigar Sadıqovun cəza çəkdiyi müəssisə İkinci Dünya müharibəsi ərəfəsində tikilib:** "Az qalıb, 100 yaşı tamam olacaq. Coğrafi olaraq daş karxanalarının arasında yerləşir. Yadigar Sadıqov nəfəs çatışmazlığı, su problemi, yayda dözülməz isti, toz-torpaq və başqa bu cür şəraitdə cəza çəkməyə davam edir.

Qanunun tələbinə görə, Yadigar Sadıqov cəzasını yaşayış yerinə yaxın Xələcdəki həbsxanada çəkməli idi. Amma burda da onun hüquqları pozulub.

Yadigar Sadıqov ailə üzvləri ilə görüş, telefon zəngləri, sovqat qəbul etməsi ilə bağlı hər hansı bir məhdudiyyətlə qarşılaşmır.

Mütəmadi olaraq ona verilmiş bu hüquqlardan maneçilik yaradılmadan istifadə edir. Onun kimi intellektual ziyalı ilə həbsxanada görüş, onu dinləmək imkanlarım var və bundan qürur duyuram".

Yadigar Sadıqov 2013-cü il iyunun 27-də Lənkəranda tutulub. Lənkəran sakini Rəşid Kərimovu döyməkdə, ona bədən xəsarəti yetirməkdə ittiham olunan Yadigar Sadıqov 2014-cü il yanvarın 13-də Lənkəran Rayon Məhkəməsinin qərarı ilə 6 il müddətinə azadlıqdan məhrum edilib.

İyulun 22-də Şirvan Apelyasiya Məhkəməsi həbs cəzasını 4 ilə endirib. Yadigar Sadıqov 14 saylı cəzaçəkmə müəssisəsində saxlanılır.

# Ərdoğan Davudoğlunu əvəzləyir

**Türkiyənin Ədalət və İnkişaf Partiyası (AKP) avqust ayında Böyük Konqres keçirəcək.**

Publika.az Türkiyə mediasına istinadən xəbər verir ki, prezident Rəcəb Tayyib Ərdoğanın yaxın ətrafı baş nazir Əhməd Davudoğlunun əvəzlənəcəyini bildirir.

İddiaya görə, konqresdən əvvəl hökumət qurulmayacağı halda, nəqliyyat, informasiya və dənizçilik naziri Binali Yıldırım baş nazir postuna gətiriləcək.

Qeyd olunur ki, Əhməd Davudoğlu Böyük Konqresə hökuməti quraraq baş nazir olaraq girmək istəyir. Konqresdə partiyanı 3 il ərzində idarə edəcək 50 nəfərlik İdarə Heyəti (MKYK) formalaşdırılacaq. Hazırkı İdarə Heyəti Ərdoğanın təyin etdiyi şəxslərdən ibarətdir.

Türkiyə mediasının yazdığına görə, Ərdoğan Davudoğlu ilə yoluna davam etmək istəmir. Ancaq Ərdoğanın ətrafındakı bəzi şəxslərin bu dəyişikliyə qarşı çıxdığı deyilir.

# Rayon mağazalarını qarət edən dəstə Bakıda yaxalandı

**Göyçayda oğurluq hadisəsi baş verib. "Report" xəbər verir ki, hadisə rayonun İnçə kəndində qeydə alınıb. Bakı şəhər sakini, 1976-cı il təvəllüdlü Bağırov Taleh İşallah oğlu tanışları Əzizov Eşlən Rafiq oğlu və İsamyılov Mayıl Şərafəddin oğlu ilə əvvəlcədən əlbir olaraq gecə saatlarında rayonun İnçə kənd sakini Hacıyev Gündüz Çingiz oğluna məxsus mağazaya daxil olublar. Dəstə üzvləri mağazadan ərzaq, geyim əşyaları və 980 manat pul götürüblər. Aparılmış təxirə salınmaz kompleks əməliyyatlar nəticəsində dəstə üzvləri Bakı şəhərində saxlanılıblar.**

Məlum olub ki, saxlanılan şəxslər bir neçə ay ərzində Beyləqan, İsmayıllı, Qobustan, Ağdaş və Hacıqabul rayonlarında müxtəlif market və ticarət mərkəzlərini qarət ediblər.

Faktla bağlı cinayət işi açılıb, araşdırma aparılır.



# Dövlət qoruğunda narkotik becərən saxlanıldı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Zaqatala Dövlət Təbiət Qoruğunun və Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisində reyd keçirilib.**

ETSN-in mətbuat xidməti bildirir ki, reyd zamanı qoruğun Axkimal sahəsinin 7 saylı dolayının 115 nömrəli kvartalında ölçüsü 7x8 metr olan sahədə narkotik xassəli çətənə bitkisi olduğu güman edilən bitki aşkar edilib.

Faktla bağlı akt tərtib olunaraq ərazi nəzərətə götürülüb və sözügedən sahəyə foto-video tələ yerləşdirilib. 3 iyul tarixində əldə edilən videogörüntülər nəticəsində ərazidə bir nəfər şübhəli şəxs saxlanılıb.

Qanun pozucusunun şəxsiyyətinin müəyyən olunması və barəsində qanuna müvafiq tədbirlərin görülməsi üçün Zaqatala Dövlət Təbiət Qoruğu tərəfindən Balakən Rayon Polis şöbəsinə müraciət edilib.

Faktla bağlı istintaq tədbirləri aparılır.

Zaqatala Dövlət Təbiət Qoruğunun ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində narkotik xassəli bitkilərin qanunsuz əkildiyi və yabanı halda bitdiyi yerlərin müəyyən edilməsi istiqamətində reydlər davam etdirilir.



# Küləkli hava davam edəcək

**İyulun 8-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən lent.az-a verilən məlumata görə, sabah ölkə ərazisində şimal-qərb küləyi əsəcək, arabir güclənəcək.**

Havanın temperaturu gecə 20-25 dərəcə, gündüz 26-31 dərəcə isti olacaq.

Sabah Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin axşam və gecə bəzi dağlıq və dağətəyi bölgələrdə şimşək çaxacağı, yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturu Aran rayonlarında gecə 21-26, gündüz 32-37 dərəcə, dağlıq rayonlarda gecə 14-19, gündüz 22-27 dərəcə isti olacaq.

İyulun 8-də Abşeron yarımadasında xəzri küləyinin əsməsi meteohəssas insanlar üçün müsbət amildir. İyulun 9-10-da gündüz saatlarında nisbi temperatur diskomfortu və havada rütubətliyin bir qədər çox olması meteohəssas insanlar üçün əlverişsizdir.

# Keçmiş məhbus intihar etdi

**Bakıda intihar hadisəsi baş verib. Sabunçu Rayon Polis İdarəsinin 14-cü polis bölməsindən APA-ya verilən məlumata görə, hadisə Maştağa qəsəbəsində qeydə alınıb. Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş, 1971-ci il təvəllüdlü İlyas Aftandil oğlu Quliyev yaşadığı evdə özünü bıçaqlayaraq intihar edib.**

# Boris Nemtsovun qətl işində yenilik

**Boris Nemtsovun qətli üzrə aparılan cinayət işində şübhəli bilinən Zaur Dadayevlə üzləşdirilən şahid bəyan edib ki, Dadayev qətli hələ 2014-cü ilin noyabrında planlaşdırırmış. Avropa.info xəbər verir ki, qətlit planlaşdırıldığı vaxt Fransanın "Çarli Hebdo" jurnalına hücumdan çox daha əvvələ düşür. Bunacan qətlin motivi kimi göstərilən versiyalardan biri də Boris Nemtsovun jurnala verdiyi dəstəklə əlaqələndirilir.**

İstintaq orqanlarındakı mənbələrinə istinad edən "Rosbalt" saytı yazır ki, Dadayevlə üzləşdiriləcək şahidin adı sonadək gizli saxlanılıb. İfadə verən gənc adam bildirib ki, Dadayevin ciddi cinayət əməli hazırlamasından hələ noyabr ayında şübhələnmişdi.

Şahid Dadayevi tanısa da, Dadayev öz növbəsində həmin şəxsi ilk dəfə gördüyünü deyib. O, noyabr-dekabr aylarında Çeçenistanda olduğunu bildirib.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

## Ali Məhkəmə Tofiq Yaqublu ilə bağlı şikayətə baxmır

**"Müsavat Partiyası başqanının həbsdə olan müavini Tofiq Yaqublu barəsində Şəki Apelyasiya Məhkəməsinin çıxardığı qərardan Ali Məhkəməyə verilən şikayət yubanır". Bunu modern.az-a Tofiq Yaqublunun vəkili Nemət Kərimli deyib.**

Onun sözlərinə görə, yanvarın 13-də Tofiq Yaqublunun Ali Məhkəmədə kasasiya şikayəti üzrə məhkəmə prosesinin ilkin baxış iclası keçirilib: "Hakimlərin işlə tanış olmadıqlarını əsas gətirərək məhkəmə qeyri-müəyyən vaxta təxirə salındı. O vaxtdan heç bir məhkəmə prosesi başlamır. Dəfələrlə vəsatətlə müraciət etmişəm ki, işlə tanışlıq müddəti heç bir halda bu qədər yubana bilməz.

Burada Tofiq Yaqublunun konstitusion hüquqları pozulur. Konstitusiya qanunvericiliyinə görə, bu müddətdə məhkəmə prosesi olmalı və yekunlaşmalı idi. Bu müddət artıq çoxdan bitib. Ancaq Ali Məhkəmə buna cavab da verməyib.

Aidiyyəti üzrə bütün hüquqi proseslər yekunlaşdıqdan sonra biz Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməyi düşünürük. Görünür, Ali Məhkəmə prosesi qəsdlə yubadır ki, biz Avropa Məhkəməsinə müraciət etməyək".

2013-cü ilin fevral ayında tutulan Tofiq Yaqublu həmin il yanvarın 23-24-də İsmayıllı şəhərində baş verən iğtişaşlara görə 5 il azadlıqdan məhrum edilib. Tofiq Yaqublu Bakıdakı 13 saylı cəzaçəkmə müəssisəsində saxlanılır.

## MTN-də saxlanılan Rauf Mirqədirovdan xəbər var

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri, hüquq müdafiəçisi Elçin Behbudov və müavini Elçin Şirinov Milli Təhlükəsizlik Nazirliyinin (MTN) İstintaq Təcridxanasında saxlanılan jurnalist Rauf Mirqədirovla görüşüb.**

Bu barədə APA-ya məlumat verən E. Behbudov bildirib ki, R. Mirqədirovun saxlanma şəraitindən və ona qarşı münasibətdən şikayəti yoxdur: "Bildirdi ki, təzyiqi var. Lakin həkimlər hər gün ona dərman verirlər və nəzarət edirlər. Hər hansı şikayəti yoxdur. İdmanla məşğul olur".

Qeyd edək ki, R. Mirqədirov ötən il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsinə əsasən ittiham olunur. Ötən il aprelin 19-da saxlanılan R. Mirqədirov barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Bundan sonra R. Mirqədirov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti bir neçə dəfə uzadılıb.

## Prokuror Suriyada döyüşən azərbaycanlılara 88 il cəza istədi

**İyulun 7-də Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyada Bəşər Əsədə qarşı qanunsuz silahlı birləşmələrdə döyüşməkdə təqsirləndirilən Sənan Baxışov, Ruslan Cəfərov, Eldost Quliyev, Məmmədşah Məmmədəliyev, Əhməd Həsənov və Maarif Mərdanovun cinayət işi üzrə məhkəmə prosesi davam edib. Lent.az-ın məlumatına görə, hakim Mirzə Xankişiyevin sədrliyi ilə keçirilən prosesdə prokuror çıxış edib. Prokuror Sənan Baxışov və Ruslan Cəfərovun, Əhməd Həsənovun və Maarif Mərdanovun 15 il, Eldost Quliyev və Məmmədşah Məmmədəliyevin 14 il azadlıqdan məhrum edilməsini istəyib.**

Qeyd edək ki, Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində 26 Azərbaycan vətəndaşı tutulub.

MTN-in İctimai Əlaqələr Mərkəzinin məlumatına görə, Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələr və ya qruplar yaratma, eləcə də onların yaradılmasında və fəaliyyətində iştirak etmə, onları silahla, döyüş sursatı ilə, partlayıcı maddələrlə, hərbi texnika ilə, yaxud əsgəri ləvazimatla təchiz etmə, habelə, tərbiyə etmək vəzifəsini daşıyan şəxs kimi yetkinlik yaşına çatmayan şəxsi ağır cinayətin törədilməsinə cəlb etmə və başqa hüquqazidd əməllərinin törədilməsinə görə ümumilikdə 26 nəfər Azərbaycan Respublikasının vətəndaşı-Yusifov Firdovsi Soltan oğlu, Soltanov Taleh Əzizağa oğlu, Həsənli Vilayət Ələsdan oğlu, Musayev Malik Elçin oğlu, Hacıyev Vasif Orduxan oğlu, Babazadə İlkin Aydın oğlu, Balakişiyev Mehman Pirbala oğlu, Mustafayev Ruslan Azər oğlu, Məmmədov Namiq Firdovsi oğlu, Muradov Fərid Arif oğlu, Həsənov Tural Namiq oğlu, Əliyev Elvin Vilayət oğlu, Mustafayev Tariyel Tapdıq oğlu, Qəmbərov Azər Asim oğlu, Bayramov Vüsal Qabil oğlu, Həşimov Samir Samid oğlu, Abbasov Nicat Faiq oğlu, Məmmədov Hüseyn Xəqani oğlu, Cəfərov Ruslan İlham oğlu, Baxışov Sənan İlqar oğlu, Quliyev Eldost Firudin oğlu, Məmmədəliyev Məmmədşah Ağaşah oğlu, Həsənov Əhməd Elxan oğlu, Mərdanov Maarif İrşad oğlu, Dursunəliyev Vüqar Əhəd oğlu və Qurbanlı Elşən Əbülfət oğlu şübhəli şəxs qismində saxlanılıblar.

Faktlarla bağlı Milli Təhlükəsizlik Nazirliyi İstintaq Baş İdarəsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci və 170.3-cü maddələri ilə cinayət işləri başlanılmışdır. Adları qeyd edilənlər təqsirləndirilən şəxs qismində cəlb olunaraq məhkəmənin qərarları ilə barələrində həbs-qətimkan tədbiri seçilib.

# Azər Əsgərov AXCP rəhbərliyindən əl çəkmir

## "Bunlar hakimiyyətə gəlsələr, bizi küçədə güllələyərlər"

**Ötən ilin martında partlayış nəticəsində sökülən AXCP-nin məlum qərargahı ilə bağlı bu ayın 29-da Ali Məhkəmədə şikayətə baxılacaq. Bu barədə sosial şəbəkələrdə mülk sahibi Azər Əsgərov məlumat yayıb.**

**A.Əsgərov "Yeni Müsavat"a açıqlamasında keçiriləcək məhkəməyə inanmadığını söylədi:** "Birinci məhkəmə şikayətimi rədd etdi. Qərarda yalnız yazılıb ki, şikayətim qismən təmin olunsun, əşyaları özünə qaytarılsın. Mülk haqqında heç bir şey yazılmayıb. Apelyasiya Məhkəməsi də rədd etdi. Ayın 29-da Ali Məhkəmədə işə baxılacaq. Açığı, inamım yoxdur. Sadəcə, işin Azərbaycanda bitməsinə sevinirəm. Avropa Məhkəməsində hər şey həll olunacaq. Mülkümlə bərabər sökülən 3 evə 17 ayda kirayə pulu verilib, evlə təmin olunublar. Amma mənə heç nə verilməyib. Hansı quruma gedirəmsə, bir-birilərinin üstünə atırlar. Mehriban xanıma müraciət etmişəm. Yer kürəsində bir dənə də mülküm yoxdur. Bir dənə bu idi, onu da dağıtdılar. Mənə "Yeni Müsavat"dan başqa kömək edən olmadı. Qənimət Zahid niyə yazmır? Yerimi elə onlara vermişdim. Ortalıqda qalmışam. Bir status yazan kimi, vəkilim deyir ki, sən Allah bunlardan yazma. Niyə yazmayım? Yalnız Ali Məhkəmə qalıb. Orada da şikayətim təmin olunmasa, Avropa Məhkəməsinə gedəcəm. Sözümü demişəm. Əgər iş Avropaya gedəndən sonra mənə desələr ki, şikayətini geri götür, hökumət cərimələnməsin, götürməyəcəm. Hamı hər şeylə təmin olundu. Yalnız məndən başqa. Niyə?"



Azər Əsgərov

**Mülk sahibi onu meydanda tək qoyan AXCP və Milli Şura rəhbərliyinə də ittihamlar səsləndirməyi unutmadı:** "Mənimlə əlaqəni çoxdan kəsiblər. Əli Kərimliyə öz iradımı bildirdiyim ilk gündən əlaqəni tamam kəsdilər. Yerimi onlara kirayə vermişdim. Bütün məsuliyyət öz üzərimdədir. Sadəcə, bir vətəndaş olaraq sənə görə mülkümdən məhrum oldum. Nədən hüquqlarımın qorunmasına kömək etmirsən? Medianda bunu işıqlandırmırsan? Hakimiyyətə gəlmək istəyirsən. Mirzə Sakit demişkən, bunlar hakimiyyətə gəlsələr, bizi küçədə güllələyərlər. "Azadlıq" müstəqil qəzet deyil. Əli Kərimlinin tribunasıdır. O, nə deyirsə, onu edir. Qənimət Zahid "Azərbaycan saatı" verilişinin maliyyəsini haradan alıb ödəyir? Hamı bilir ki, CanErzican.tv kanalı Türkiyədə müstəqildir. Bu kanal pulsuz veriliş verər? Həftədə bir saat verilişini verir. Türkiyədə bir dəqiqə reklam üçün məndən 5 min avro pul istədilər. Qənimət Zahid, pulları haradan alırsan? Bunlar dövlət tərəfindən maliyyələşirlər. Mülkümə görə pul alıb susdular. Bunlarınkı küçə partiyasıdır. Hazırda AXCP daxilində çaxnaşma var. Onların içərisindən olan adamlar mənə deyirlər ki, çaxnaşmanın səbəbi sənin mülkündən alınan pullarla bağlıdır. Əli Kərimlidən tələb edirlər ki, mülkün hesabına alınan bir milyon 800 min manat və ABŞ, Fransa səfirliyinin hər birindən alınan 500 min manat hardadır? Açıqca pul davası gedir. Gözəl Bayramlı Tiflisdə, Kəmalə Bənəniyarlı Almaniyadan belə gəzirlər. Kəmalə mənə yazmışdı ki, sənin mülkünün hesabına neçə adamlar banka pullarını ödədilər. Bunlar insan həyatları ilə oynayırlar. İstəyirlər ki, Azərbaycan Suriyanın gününə düşsün. Verdiyim sualların heç birinə cavab vermirlər. 5 dəfə tutuldum. Bir dəfə iki-üç nəfər arxamca gəlmişdi. Mənə təzyiqlər olur. Amma müdafiə olunmuram".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycanda internet qiymətləri niyə "ceyran belinə" çıxıb?

## Osman Gündüz: "Ölkədə normal keyfiyyətli internet əlçatan deyil"

**Azərbaycanda internet paketlərinin qiymətləri qonşu ölkələrlə müqayisədə dəfələrlə bahadır. Dövlətin nəzarətində internet provayderi olan "Bakinternet"də də internet qiyməti elə də ucuz deyil. Belə ki, 1 mbit sürətli limitsiz internet aylıq 10 AZN, 2 mbit sürətli internet 15 AZN, 3 mbit sürtəli internet tarifi isə 20 AZN-dir. Digər provayderlərin qiyməti də bundan fərqli deyil. İnternetin keyfiyyətinə gəlincə, təklif edilən sürət heç də deyildiyi qədər istifadəçiyə gəlib çatmır.**




Mobil operatorlara məxsus datakartlarda hər "mb" "qızıl qiymətinə" təklif olunur. "Azərcell" datakartında 1 GB internet -6 AZN, 3 GB internet 12 AZN, 9 GB-18 AZN, 18 GB internet isə 24 AZN-dir. "Bakcell" və "Nar mobile"ın təklif etdiyi internet paketlərin qiymətləri də prinsipcə də bundan fərqli deyil.

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz** "Yeni Müsavat"a açıqlamasında hazırkı qiymətlərin yüksək olmasını vurğuladı: "Azərbaycanda son dövrlər internet, mobil internet və mobil danışıq tarifləri ilə bağlı müəyyən endirimlər olsa da, hazırkı qiymətləri qonşu ölkələrlə müqayisə etsək görərik ki, adını çəkdiyim bu üç xidmət hazırda Azərbaycanda xeyli bahadır. Bu xidmətlərin keyfiyyəti də arzuolunan səviyyədə deyil. Mən xatırlayıram ki, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bir neçə dəfə açıqlamalar verdi ki, mobil tariflərdə endirimlər olmalıdır. Lakin təəssüf ki, biz mobil operatorlar tərəfindən bu istiqamətdə cəhdlər görmürük. Mən düşünürəm ki, tənzimləyici qurum olaraq nazirlik bununla bağlı konkret mövqe ortaya qoymalıdır. Biz hələ ki bunu müşahidə etmirik. Nazirin özü dəfələrlə bu barədə açıqlama versə də heç bir addım atılmayıb".

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin fəaliyyətini də tənqid edən ekspert bu qurumun tənzimləyici səlahiyyətlərindən yetərincə istifadə etmədiyini bildirdi:** "Nazirlik dəfələrlə internet və mobil danışıq xidmətinin keyfiyyətinin yoxlanması ilə bağlı açıqlamalar verib. Lakin bu yoxlamaların nəticələri heç zaman cəmiyyətə açıqlanmayıb. Cəmiyyətə informasiya verilir ki, nazirlik mobil operatorların və internet provayderlərin xidmətinin keyfiyyətini ölçür, nəticələr isə ortada yoxdur. Lakin bu nəticələr mütləq açıqlanmalıdır və vətəndaş bu nəticələri qiymətləndirərək qərar verəcək ki, hansı operatordan istifadə etsin".

**Mobil operatorların təklif etdiyi internet paketlərinin qiymətinə gəlincə, O.Gündüz bildirdi ki, əgər Rabitə və Yüksək Texnologiyalar Nazirliyi öz tənzimləyici funksiyasını yerinə yetirə bilsə, bu, normal rəqabət üçün yetərli olar:** "Digər ölkələrdən fərqli olaraq bizdə kommunikasiya sisteminin fəaliyyətinə nəzarət edən müstəqil qurum yoxdur. Azərbaycanda bu, Rabitə Nazirliyinin nəzdindədir. Buna görə gərək nazirlik öz səlahiyyətlərindən istifadə edərək nəzarəti həyata keçirsin".

**Ekspert onu da vurğuladı ki, Azərbaycanda normal keyfiyyətli internet elə də əlçatan deyil:** "Əhalinin regionlarda yaşayan hissəsi üçün keyfiyyətli internet əlçatmazdır. Bu problemləri Rabitə və Yüskək Texnologiyalar Nazirliyi aşkara çıxartmalıdır. Bu qurum monitorinq aparmalıdır, aparır da. Lakin nəticələrini cəmiyyətə açıqlamır və problemlərin həlli üçün addım atmır".

❑ **Nərgiz LİFTİYEVA**

**Rusiyanın məşhur "Soverşenno Sekretno" nəşri Azərbaycan əsilli yəhudi milyarder Telman İsmayılovun və iki mafioz ortağının - özbək əsilli qazaxıstanlı iş adamı Patox Şodiyevin və çeçen Musa Bajayevin Qərb xüsusi xidmət orqanları tərəfindən ələ alındığına dair sensasion məqalə dərc edib.**

# Rusiya nəşrindən "AST Telman"la bağlı sensasion iddia

## "Soverşenno Sekretno" nəşri Azərbaycan əsilli yəhudi milyarder Telman İsmayılovun və iki ortağının Qərb xüsusi xidmət orqanları tərəfindən ələ alındığına dair sensasion məqalə dərc edib

Virtualaz.org saytı xəbər verir ki, məqalənin müəllifi Andrey Kondratov milyarder-oliqarxların Qərb tərəfindən Rusiya ilə qarşıdurmada işə salınacağını iddia edir.

Telman İsmayılovun, Patox Şodiyevin və Musa Bajayevin arasında ilk baxışdan ümumi heç nə yoxdur. Onlardan birincisi restoran və nəşriyyat biznesi ilə məşğul olur, ikincisi elektroenergetika və faydalı qazıntılardn qazanır, üçüncüsü isə bu yaxınlarda neft-qaz biznesini satıb və platin biznesinə girib.

Lakin müəllif iddia edir ki, bu oliqarxları "Forbes"in siyahısından başqa birləşdirən digər ümumi cəhət də var: hər üçünü vaxtilə xarici xüsusi xidmət orqanları ələ alıb və indi Rusiya prezidenti Vladimir Putinə qarşı mübarizədə bu "yatmış agentləri" işə salıblar.

A.Kondratovun sözlərinə görə, hazırlıqsız oxucular üçün ağlabatan görünməyən bu versiya son vaxtlar getdikcə daha çox təsdiqini tapır.

Rusiyalı araşdırmaçı-jurnalist öz versiyasını əsaslandırmaq üçün ilk növbədə Patox Şodiyevin bioqrafiyasına nəzər salır.

P.Şodiyev ictimai açıq fiqur deyil və barəsində olduqca az məlumat var. Məlumdur ki, o, Daşkənddə doğulub-böyüyüb, sonra Moskvada, MQİMO-da təhsil alıb. İnstitutu bitirəndən sonra SSRİ-nin Yaponiyadakı ticarət nümayəndəsi işləyib. SSRİ-nin dağılmasından sonra Qazaxıstana qayıdıb və bizneslə məşğul olmağa başlayıb, əfsanəvi dərəcədə varlanıb. Dağ-mədən korporasiyası ENRC-nin təsisçisi və sahiblərindən biri olub. Hazırda onun sərvəti 4 milyard dollara yaxındır.

P.Şodiyevin adı 90-cı illərin sonlarında Qərbdə korrupsiya qalmaqalı ilə bağlı hallanmağa başladı. Buna səbəb Belçikanın "Tractebel" adlı şirkətinin Qazaxıstanda tamamilə sərfəli şərtlərlə bir sıra aktivləri əldə etməsi idi.



Məsələn, bu şirkət Qazaxıstanın magistral qaz kəmərlərini qəpik-quruşa əldə etmişdi. Şirkətin maraqlarının təminatçısı Şodiyev idi.

Ancaq sonradan Şodiyevin belçikalı ortaqları ilə münasibətləri korlandı və biznesmeni on milyonlarla dollar rüşvət almaqda ittiham etdilər.

Bu qalmaqaldan əvvəl - 1997-ci ildə Belçika vətəndaşlığını alan Şodiyevi uzunmüddətli həbs cəzası gözləyirdi. Lakin 10 ilə yaxın davam edən istintaqdan sonra Şodiyev cəmi 23 milyon avro cərimə ilə yaxasını qurtara bildi, ona qarşı ittihamlar geri götürüldü, cinayət işi bağlandı.

A.Kondratov iddia edir ki, əslində Şodiyev Qərb xüsusi xidmət orqanları ilə sövdələşməyə razı olduğu üçün ona qarşı qaldırılmış cinayət işini bağlamışdılar *(virtualaz.org saytı bu sirli biznesmen barədə daha geniş məqaləni yaxın buraxılışlarının birində oxuculara təqdim edəcək)*.

Lakin bu, Şodiyevlə bağlı yeganə qalmaqal deyil. 2010-cu ildə Şodiyev və onun milyarder dostları - Telman İsmayılov, qazaxıstanlı oliqarx Aleksandr Maşkeviç, həmin Musa Bajayev və digərləri Atatürkün yaxtasında Rusiyadan və Ukraynadan olan fahişələrlə əylənərkən Türkiyə polisi tərəfindən yaxalandı.

Məlum oldu ki, "üzən bordel"dəki qızların çoxu yetkinlik yaşına çatmayıb. Milyarderlər əyləncəli erotik səyahət zamanı onların sutkasına 3-10 min dollar ödəyiblər. Lakin Şodiyevin və digərlərinin barəsində azyaşlılarla əylənməyə görə cinayət işi qaldırılmadı.

"Soverşenno sekretno"nun iddiasına görə, bunun arxasında ABŞ və Türkiyə xüsusi xidmət orqanları ilə sövdələşmə dayana bilərdi.

# Partlayış olan zavodda yanan qadınlardan 4-nün həyatı təhlükədədir

## Hadisə ilə bağlı cinayət işi başlanıb; olay Yavər Camalovun karyerasını bitirə bilər

**İyulun 6-da Şirvan şəhərindəki "Telemexanika" zavodunda baş verən partlayışda yanıq xəsarəti alan qadınlardan 4 nəfərinin vəziyyətin ağırdır. Qadınlar Bakıya gətirilərək 5 saylı Şəhər Kliniki Xəstəxanasının yanıq şöbəsinə yerləşdiriliblər. Şöbənin müdiri Şöhrət Məmmədov "Yeni Müsavat"a deyib ki, hazırda şöbədə olan qadınlar bunlardır: 44 yaşlı Xatirə Səttarova, 49 yaşlı Gülnarə Muradova, 42 yaşlı Zülfiyyə Mehtiyeva və 49 yaşlı Mehparə Əbilova.**

Şöbə müdiri xəstələrin şokda olduğunu da açıqlayıb: "Deyirlər ki, elektrik qısaqapanması olub, hər 4 xəstə ağır dərəcəli yanıq xəsarətləri alıb, xəstələr şokdadır".

**Şöbə müdiri xəstələrin barıtdan yanması ilə bağlı iddialara da münasibət bildirdi:** "Dəqiq bilmirik, amma bizə elə deyirlər. Dəqiqini işi araşdıranlar bilər. Termiki yanıq xəsarətləridir. Özləri də deyirlər ki, "tok"dan nəsə alışıb və hadisə olub".

Ş.Məmmədov xəstələrdən birinin ölməsi haqda əvvəl yayılan məlumatların doğru olmadığını da açıqlayıb. Deyib ki, yaralıların vəziyyəti ağır-stabildir.

Yada salaq ki, hərbi təyinatlı zavodda baş vermiş partlayış zamanı Şirvan şəhər sakini, 1967-ci il təvəllüdlü Raziyə Cəfərxan qızı Süleymanova aldığı ağır dərəcəli yanıq xəsarətlərindən hadisə yerində keçinib, 19 nəfər yanıq xəsarətləri ilə xəstəxanaya çatdırılıblar. Onlardan bir çoxuna ilkin tibbi yardım göstərilərək evə buraxılıblar. Şirvan Şəhər Təcili Tibbi Yardım Xəstəxanasında aldıqları yanıq xəsarətlərindən müalicə olunan qadınlar isə bunlardır: 1961-ci il təvəllüdlü Gülnarə Vəlixan qızı Muradova,



1964-cü il təvəllüdlü Həlimə Ordu qızı Vəliyeva, 1960-cı il təvəllüdlü Şərqiyyə Ədalət qızı Rzayeva və 1973-cü il təvəllüdlü Zülfiyyə Kamal qızı Mehdiyeva.

Şirvan Şəhər Mərkəzi Xəstəxanasının Travmatologiya şöbəsinin müdiri Tofiq Hüseynov deyib ki, xəstəxanaya gətirilənlərdən 13 nəfərinə ilkin ambulator tibbi yardım göstərilib.

Şirvan Şəhər Prokurorluğunda "Telemexanika" zavodunda baş verən yanğınla bağlı cinayət işi başlanıb. Bu haqda yayılan məlumatda qeyd olunur ki, iyulun 6-da Müdafiə Sənayesi Nazirliyinin Şirvan şəhərində yerləşən "Telemexanika" zavodunda baş verən yanğınla bağlı prokurorluq, polis və Fövqəladə Hallar Nazirliyinin əməkdaşları dərhal hadisə yerinə çıxıblar. Həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində yanğının qarşısı alınıb. Ekspertlərin iştirakı ilə hadisə yerinə baxış keçirilib, ekspertiza tədqiqatı üçün nümunələr götürülüb və digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 223.2-ci (partlayış təhlükəli obyektlərdə təhlükəsizlik qaydalarını pozma ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, hadisənin baş verməsəbəblərinin müəyyənləşdirilməsi məqsədi ilə müvafiq ekspertizalar təyin edilib.

Maraqlıdır ki, Müdafiə Sənayesi Nazirliyinin olayla bağlı məlumatında "Telemexanika" zavodunun sexlərindən birində yaranmış qısaqapanma nəticəsində sıçrayış olduğu və nəticədə 20 kvadratmetr sahədə yanğın baş verdiyi qeyd olunurdu.

Redaksiyamıza daxil olan məlumatlarda isə sexdə partlayış olduğu, sexin tavanının bəzi hissələrinin uçduğu bildirilirdi.

Müəssisə 1981-ci ildə Sihazlar zavodu adı altında fəaliyyətə başlayıb. 1988-ci ildə Sihazlar və Sənaye avtomatikası və Telemexanika zavodları birləşdirilərək Sənaye avtomatikası və Telemexanika zavodu adı altında fəaliyyət göstərib. 1991-ci ildə "Telemexanika" İstehsalat Birliyi yaradılıb. 1993-cü ildən "Telemexanika" İstehsalat Birliyi Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tərkibində olub. 2006-cı ildən Telemexanika zavodu Müdafiə Sənayesi Nazirliyinin tərkibində fəaliyyətini davam etdirir. Telemexanika zavodunun əsas fəaliyyət istiqamətləri neft sənayesi üçün cihazların istehsalı və texnoloji tərtibatların hazırlanmasıdır. Zavodda müdafiə təyinatlı məhsulların istehsal edilməsi haqda da məlumatlar var. Orada baş vermiş partlayışdan sonra jurnalistlərin əraziyə buraxılmaması da zavodun müdafiə təyinatlı məhsullar istehsal etməsi ilə əlaqələndirilib. Vaxtilə zavodda çalışmış şəxslərdən biri qəzetimizə açıqlamasında deyib ki, partlayış baş vermiş sex digərlərindən xüsusilə qapalı olması ilə fərqlənib. Hətta zavodun direktoru da ora sex rəisinin icazəsi olmadan daxil ola bilmir. Həmin sexdə partlayışdan dərhal sonra əraziyə müdafiə sənayesi naziri Yavər Camalov da baş çəkib. Nazir olayın nəticələrinin tezliklə aradan qaldırılması haqda göstəriş verib. Y.Camalov zavoddakı partlayışın onun karyerasına vura biləcəyi zərbənin fərqindədir. Məlumata görə, nazir işin tezliklə yaddan çıxmasına çalışır. Bunun üçün müxtəlif orqanlarda yüksək vəzifə tutan qohumlarına da müraciət edib...

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015

# Ukraynaya “qara para” axını

**Neft bumunun faktiki başa çatmasının ardınca manatın devalvasiyası və “oliqarxqeyt” adı alan Beynəlxalq Bank qalmaqalı Azərbaycanda bəzi oliqarxların əllərindəki külli miqdarda “ölü kapital” ölkə sərhədindən kənarda “diriltməyə” vadar edib. Rusiyanın iqtisadi sanksiyalara məruz qalmasından sonra bu ölkəyə sərmayə qoymaq da böyük riskə çevrilib və bu səbəbdən də indi oliqarxlar yeni bazarlar axtarışındadırlar.**




# Oliqarxlarımız Lvovu alır-özəl xəbərlər

## Poroşenko “şişmiş oliqarxların” əl-ayağını yığmaqla ölkədə Rusiyanın maraqlarına xidmət edən böyük bir şəbəkənin əlindəki kapitallı hökumətin nəzarətinə alır, onların yerini isə azərbaycanlı varlılar tutur; məmur-oliqarxların bu cür işlərlə məşğul olan agentləri az qala qarşılarına çıxan bütün obyektləri alırlar...

Məlumatlara görə, oliqarxlarımızın bu il sərmayə qoyduğu ölkələr sırasında ilk yerdə qonşu Türkiyədir. 2015-ci ilin yanvar-aprel aylarında Türkiyədə Azərbaycan kapitallı 60 şirkət, o cümlədən 16 səhmdar cəmiyyət yaradılıb. Bu barədə Türkiyənin Palatalar və Birjalar Birliyindən bildirilib. Səhmdar cəmiyyətlərin kapitalında Azərbaycan oliqarxlarının iştirakı 76,5%-dir (4 milyon 391,5 min lirə). Azərbaycan sahibkarları məhdud məsuliyyətli şirkətlərin kapitalına isə 3 milyon 392 min lirə qoyublar. Oliqarxlar əsasən ticarət, ictimai iaşə, turizm, nəqliyyat və s. sahələrə sərmayə yatırırlar.

Nəzərə alsaq ki, söhbət kifayət qədər iri kapitalın qardaş ölkəyə yatırılmasından gedir, o zaman yaradılan bu 16 səhmdar cəmiyyətin arxasında məmur-oliqarxların “qara para”sının dayanması şübhə doğurmur. Ölkəmizdən Türkiyəyə pul axınının artması və təkcə bu ilin ilk 4 ayı ərzində 60 Azərbaycan kapitallı şirkətin yaradılması da şübhəsiz ki, yuxarıda qeyd etdiyimiz yeni iqtisadi şərtlərin diktəsidir. Artıq azərbaycanlı oliqarxlar üçün Türkiyə həm biznes, həm də həyat şərtləri baxımından daha əlverişli və cəzbedici görünür.

Məlumatlara görə, oliqarxlarımız Türkiyə ilə yanaşı Ukraynaya da ciddi kapital qoyurlar. Çexiya Respublikasına axan para indi istiqamətini, nə qədər qəribə də olsa, Ukraynaya doğru dəyişməkdədir.

Ukrayna Rusiya ilə müharibə şəraitində olsa da, turistlərin daha çox üz tutduğu Qərbi Ukrayna-Lvov vilayəti münaqişə zonasından kənardadır. Azərbaycanlı oliqarxları Ukraynaya para axıtmağa həvəsləndirən ən mühüm səbəb nə qədər qəribə səslənsə də, bu ölkədə məmur-oliqarxlara qarşı başlanmış mübarizədir.

Prezident Pyotr Poroşenko bir neçə aydır ki, Ukrayna iqtisadiyyatında hökmranlıq edən oliqarxlarla mübarizəyə başlayıb. Ukraynalı milyarder İqor Kolomoyskiy Dneprpetrovsk qubernatorluğundan uzaqlaşdırıldıqdan sonra onun biznesinə də əl qoyulub və o, faktiki Ukraynadan çıxarılıb. Ukrayna hökuməti antioliqarx kampaniyasına başlayandan sonra Kolomoyskiyin payçısı olduğu 2 dövlət neft şirkətinin idarəsindən uzaqlaşdırdı, yaxınları isə ölkənin bütün biznes strukturlarından sıxışdırıldı. Onun şəriki Gennadi Boqolyubovun da biznesi ciddi itkilərə məruz qaldı. Prezident Pyotr Poroşenko bu yaxınlarda ictimaiyyətə ünvanlanan müraciətində hökumətin əsas hədəflərindən danışarkən deyib: **“Hökumətin əsas məqsədi iqtisadiyyatı oliqarxlardan qurtarmaqdır. Biz çalışırıq ki, ölkədə asayişi təmin edək, amma oliqarxlar xaos yaradır”.**

Məlumatlara görə, Poroşenko “şişmiş oliqarxların” əl-ayağını yığmaqla ölkədə Rusiyanın maraqlarına xidmət edən böyük bir şəbəkənin əlindəki kapitallı hökumətin nəzarətinə almağı planlaşdırır. Onların yerini isə hakimiyyət iddiası olmayan postsovet respublikalarının varlıları, eləcə də Ukraynaya qonşu Avropa ölkələrinin biznesmenləri tutur. Odessa qubernatoru Saakaşvilinin də dediyi kimi, indi Ukrayna hakimiyyətinin əsas işi bu ölkəyə xarici investorları cəlb etməkdir. Yeri gəlmişkən, bizimkilər məhz Saakaşvili vasitəsilə Odessaya da sərmayə yatırırlar.

İkinci Dünya müharibəsinə qədər Polşaya məxsus olan Lvov 1939-cu ildə Sovet İttifaqının və Almaniyanın arasındakı razılaşma nəticəsində (Molotov - Ribbentrop paktı) Ukrayna SSR-nin tərkibinə daxil olub.

Lvov dünya turistləri üçün çox cazibədardır. 2009-cu ildə şəhərə Ukraynanın Mədəni paytaxtı adı verilib. Əhalinin sayına görə Lvov Ukraynada yeddinci şəhəridir. Lvovdan 80 km aralıda Ukraynanın tanınmış Truskavets kurortu yerləşir və azərbaycanlılar arasında bu kurort çox populyardır. Üstəlik, burada qiymətlər də əlverişlidir ki, bu da azərbaycanlı oliqarxları Ukraynaya cəlb edir. Xəbərlərə görə, məmur-oliqarxlar bir neçə aydır ki, ən inanılmış adamlarını Qərbi Ukraynaya göndərib və burada əsasən hotellər və iaşə obyektləri alırlar. Xəbərdə deyilir ki, oliqarxların bu cür işlərlə məşğul olan agentləri az qala qarşılarına çıxan hər şeyi alırlar. Mənbə deyir ki, digər MDB ölkələrindən olan zənginlər də bu işdə fəaldır. Bildirilir ki, Lvovda çoxsaylı hotellər və istirahət mərkəzlərinin əksəriyyəti artıq azərbaycanlı məmur-oliqarxların əllərinə keçib.

Hazırda azərbaycanlı investorlar Ukraynanın kurort bölgələrində daşınmaz əmlaka yatırım qoymaqda da liderlik edirlər. Məlumata görə, vaxtilə bu sahədə ruslar liderlik edirdisə, indi Azərbaycan və yaxın postsovet ölkələrindən olan zənginlər də qiyməti xeyli ucuz olan kotteclər, apartamentlər, hotellər və villalar almaqda fəaldır. “Vurulmuş” oliqarxlara bağlı olan ukraynalı biznesmenlər isə həmin obyektləri ucuz qiymətə sataraq hökumətin bunlara da əl qoyacağından ehtiyat edirlər.

❑ **“Yeni Müsavat”**



# Müxalifətçiliyi insanlar üçün necə maraqlı etmək olar...



**Hüseynbala SƏLİMOV**

**Ötən dəfə bir az siyasi partiyalardan yazdıq. Amma istəməzdik elə təsəvvür yaransın ki, hər şey bir qrup siyasətçinin ucbatından baş verir. Yox, belə deyil və bunu bəri başdan etiraf edirik...**

O bir qrup siyasətçinin ən böyük günahı odur ki, başqalarına imkan vermədilər, özləri üzərində də işləmədilər, 80-ci illərin siyasi şüarlarından asılıb qaldılar...

Amma həyat dəyişir. Biz bunu görsək də, görməsək, qəbul etsək də, etməsək də, bu, belədir. Mənə həmişə elə gəlib ki, hər şey “Böyüyəndə kim olacaqsan?” sualından başlayır. Əgər böyüklər bu sualı verə bilirsə, kiçiklər də ona cavab tapa bilirsə, deməli həyat normal məcrasındadır...

İndi də ki, şükür, hansı uşağı dindirirsən, qayıdır ki, bəs böyüyəndə varlı adam olmaq istəyirəm...

Bunun heç özü də pis deyil. Deməli, artıq həyatda müəyyənlik yaranıb. İnsanlar artıq “Bir parça çörək tapaq!” qayğısı ilə yaşamır, nəsə planlaşdırır, nəyisə niyyət edirlər... İndi nə 80-ci illərdir, nə də 90-cı illərin əvvəli. Dərinə varıb lap Nekrasovsayağı “Kimə Azərbaycanda yaşamaq çətindir?” sualını dilə gətirsək, görərik ki, bu ədəd elə də böyük deyil...

Aydın olsun deyə, bir həyati misal çəkəcəm. Moskva Universitetində bizim kursda beş azərbaycanlı vardı. Onlardan dördü şəraitə uyğunlaşaraq karyerasını qura bildi. Yalnız bir nəfər, bu sətirlərin müəllifi şəraitlə barışa bilmədi...

Deməli, beş nəfərdən biri. Bu, 20 faiz edir. Haradasa cəmiyyətin 20 faizi indiki gercəkliklə barışmaq istəmir. Reallıqda isə bu ədəd daha azdır. İndi bu ədədin dəqiq miqdarını demək mümkün deyil. Amma insanların 90 faizi üçün həyat müəyyənləşib, həyatda müəyyənlik yaranıb...

Bunu nəzərə almaq və etiraf etmək lazımdır. Düşünürsən ki, bir-iki aydan sonra pis-yaxşı, parlament seçkisi olacaq və əgər bizim müxalifətçilər seçkiyə bu dəfə də özlərinin radikal şüarları ilə gedəcəklərsə, onda heç nə...

Açığı müxalifət də öz mövqeyinə korrektələr etməlidir. Demirik ki, hakimiyyətin mövqeyi qüsursuzdur. Yox, müxalifət deyir ki, hər şey pisdir, hakimiyyət isə buyurur ki, hər şey yaxşıdır... Amma həqiqət hardasa ortada, ortalıqdadır...

Kimə Azərbaycanda yaşamaq çətindir? O adamlara ki, onlar orta statistik azərbaycanlının qane olduğu azadlıqdan bir az artıq istəyir. O adamlara ki, bu ölkədə seçkilərin necə keçirilməsinin, səslərin necə sayılmasının, onların səslərinin kimin adına yazılmasının, özlərinin deputatlarının kim olmasının fərqindədirlər. O adamlara çətindir ki, onlar indiki parlamentdən razı deyillər.

O adamlara ki, onlar məhkəmələrdən siyasi yox, ədalətli qərarlar gözləyirlər...

Qalanların tələbləri isə başqadır. Adətən insanların böyük əksəriyyəti böyük tələblər irəli sürmürlər. Həm də bu tələblər maddi tələblər olur-iş, maaş, ailə, ev, maşın və s.

Bizim tələblərimiz isə daha çox mənəvi tələblərdir. Etiraf etmək lazımdır ki, biz azıq. Amma çox da inadkarıq. İnadkar olmasaydıq bizim dəyişmək istədiyimiz hakimiyyət güclü çıxıb bizim özümüzü çoxdan dəyişərdi. Burada yadıma bir detal düşür. Partiya rəhbəri postundan istefa verən müxalifət lideri çox maraqlı fikir demişdi. Bəli, demişdi ki, bu illər ərzində nə mən hakimiyyəti, nə də ki, hakimiyyət məni dəyişə bilmədi, elə belə də ayrıldıq! O müxalifət lideri bəlkə də özü də bilmirdi ki, bu fikirlə, necə deyərlər, həqiqəti lap gözündən vurmuşdu...

Bəli, hakimiyyəti dəyişə bilmədik. Amma hakimiyyət də bizi dəyişə bilmədi.

Biz də bu gerçəkliklə barışa bilmədik. Reallıqları qəbul edə bilmədik. Üstəlik, ölkədən çıxıb getmək haqqında da fikirləşmirik...

Bəs nə etməli? Necə etməli? Necə yaşamalı? Yenə də Qərbin təcrübəsinə üz tutmağa məhkumuq. 60-cı illərdə oralarda da insanlar bu sualla qarşılaşmışdı.

O vaxt onlar dedi ki, cəmiyyəti və hakimiyyəti dəyişə bilmiriksə onda heç olmasa, özümüz üçün “azadlıq adaları” qoparaq... Heç olmasa, bu yolla həyatı özümüz üçün maraqlı edək...

İndi bizim liderlərin də edə biləcəyi odur ki, özlərinin, demək olar ki, əsası olmayan ambisiyalarından əl çəksinlər, partiyaları, ümumiyyətlə, müxalifətçiliyi insanlar üçün maraqlı etsinlər. Bu haqda dəfələrlə yazmışıq və bu fikirdə olmuşuq ki, heç olmasa, onlar buna razı olarlar...

Amma baxıb görürsən ki, heç də belə deyil. Liderlərin “maraqlar”ı hələ də digər maraqları üstələyir...

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015



# Narkotik daşıyan quşun və narkoman eşşəyin əhvalatı

Samir SARI

**Son günlər yəqin ki, tək məni yox, minlərlə məmləkət insanını belə bir sual düşündürür: görəsən, biz də yunanların gününə düşə bilərikmi? İndi bəziləri deyəcək, yunanlardan da pis gündəyik, məsələn, biz də onlar kimi bankların qarşısında növbəyə düzülür-filan.**

Bir yandan baxanda elə görünür, amma əsas fərq odur ki, indilikdə biz bankların ödəniş terminallarının qarşısında növbəyə düzülürük ki, kredit borclarımızı ödəyək, banklara pul verək, yunanlar isə banklarda batan pullarını almaq üçün növbədədirlər. O gün bir yunan kişinin bankın qabağında yerə çöküb ağladığını əks etdirən foto yayılmışdı, dünyanın yarısı ona baxıb kövrəlirdi.

Hər halda, adam istər-istəməz əndişələnir, burda da elə bir şey ola bilərmi?

İndilərdə bəlkə də olmaz, neftimiz, qazımız var, xaricə satırıq, dollar, avro gəlir, başımızı dolandırırıq, amma gələcəkdə bu karbohidrogen ehtiyatları qurtarsa nə olacaq? Budur məsələ.

Əlbəttə, yəhudilər və yaponlardakı kəllədən bizdə olsaydı, nəsə bir şey icad edib çulumuzu sudan çıxarardıq, amma son illər dəqiq elmləri demirəm, təkcə ana dilindən "iki" alanların sayını, faizini görəndə adam pessimistləşir.

O gün balaca bir auditoriyada bu xüsusda söhbət edirdik, həmsöhbətlərimin ikisi dedi ki, bədbin olmağa lüzum yoxdur, bizdə olan kəllədən nə yaponlarda var, nə də yəhudilərdə.

Onların hər ikisi öz sözlərinin təsdiqinə yönəlik bir hadisə danışdı. İndi mən də o hadisələri sizə danışım, görün, bunlar camaatımızın intellektual potensialına, iti zəkasına, parlaq zehninə, beyin qırışlarına dəlalət edə bilər, yoxsa edə bilməz.

Hadisənin biri Salyanda fəaliyyət göstərən cəzaçəkmə müəssisəsində baş verib. Həbsxana rəhbərliyi nə illah edirmiş, türmədə narkotik maddələrin dövriyyəsinin nəzarət altına ala bilmirmiş, "şey" və "mal" biznesi gündən-günə çiçəklənirmiş. Məhbusların yanına gəlib-gedənlər bittə-bittə yoxlanılırmış, məhbusa narkotik maddə ötürmək istəyən qohum-əqrəba ifşa olunurmuş, amma yenə də narkotikdən istifadə azalmırmış. Axırda işin üstü açılıb. Heç demə, zonada quş saxlayan və ləqəbi "Quşbaz" olan məhbuslardan biri yanına gələn qohumlarına göyərçin verib bayıra göndərirmiş, qohum da gəlib "şey"dən, "mal"dan tədarük edir, türmənin yaxınlığına gəlir, quşun sərbəst daşıya biləcəyi çəkidə porsiyanı zavallı heyvanın ayağına bağlayırmış, "Quşbaz" öz quşlarını adəti üzrə fıştırıqlayıb havalandıranda, bu da quşu buraxırmış. Öz quş yoldaşlarını görən kəkilli tezliklə onların arasına qatılır, həvada pərvazlanandan sonra öz hininə enir, "Quşbaz"a göndərilmiş narkotik maddəni ünvanına çatdırırmış. Bir gün bu işin üstü açılıb və "Quşbaz"ı boyunlayıb, quşxanasını da dağıdıblar.

İkinci hadisə də narkotik tranziti ilə bağlıdır, bu isə cənub sərhədlərimizdə olub. İrandan ölkəmizə narkotik maddə keçirməyin çətinləşdiyini (əlbəttə, 3 ton maye heroinin sərhəddən sərbəst şəkildə keçirilməsi nəzərdə tutulmur, söhbət xırda partiyaların keçirilməsindən gedir) görən o tayl-bu taylı narkotacirlər çıxış yolunu bir yazıq eşşəyi narkomana çevirməkdə görüblər. Onlar bu taylı eşşəyi bir müddət bəsləyib iynəyə otuzdurandan sonra narkotiklə yükləyib üzü bəri göndəriblər. Sərhədçilər səllimi gəzən, iki sərhəd arasında soncuqlayan eşşəyə qoşulmayıblar və mal öz ünvanına çatıb. Daha sonra eşşəyin iynələnmək dəmi gələndə o, "lomka"ya düşməmək üçün yenidən o taya qayıdıb. Ulağı yenidən yükləyib bu taya göndəriblər. Bir belə, beş belə, dilsiz-ağızsız narkomon eşşək bir müddət narkotacir rolu oynayıb. Amma sonradan bu haqq-hesabın üstü də açılıb.

Hazırda bu sektorda işləyənlər başqa bicliklər işlətməkdədirlər, hətta düz bağırsaqda narkotik daşımaq mərhələsi də arxada qalıb.

Uzun sözün qısası, pul qazanmaq üçün bu qədər beyin işlədən, gödəninə ikinci dəlikdən narkotik maddə dolduran, quşdan, eşşəkdən yararlanan, hər cür əzaba qatlaşan, hər yola əl atan camaat heç bir iqtisadi böhranda batmaz, mütləq bir yol tapıb başını dolandıracaq.

Heyf ki, biz hələlik iti beynimizi əyri işlərdə işlədirik...

# Jurnalistlə deputat arasında qalmaqal

## Eynulla Fətullayevin Rasim Musabəyov haqda yazısına qarşı tərəf reaksiya verdi; sayt rəhbəri isə hüquq-mühafizə orqanlarına müraciət etdi

**Deputat Rasim Musabəyovla jurnalist, virtualaz.org və haqqin.az saytlarının rəhbəri Eynulla Fətullayev arasında ciddi qalmaqal yaranıb. Buna səbəb E.Fətullayevin onun barəsində yazdığı "Mən həmişə Əliyevə qarşı işləmişəm..." müəllif yazısıdır.**

Virtualaz.org saytı xəbər verir ki, deputat jurnalistin onun siyasi keçmişinə nəzər salan və "Mən həmişə Əliyevə qarşı işləmişəm..." başlıqlı məqaləsinə cavab olaraq facebookda onu Elmar Hüseynov kimi qətlə yetirməyə çağırıb. "Bu ictimai-siyasi xadim, keçmiş müsavatçı, qərbmeylli liberal və deputat mandatı daşıyan şəxs jurnalistə qarşı küçə leksikonunu işə salıb və normal siyasi tənqidə tənqidlə cavab vermək əvəzinə, özünün facebook səhifəsində onun ünvanına söyüşlər yağdırıb. KQB sədrinin müavininin kürəkəni olan Musabəyov əsl Bakı bolşeviklərinin və Beriyanın üslubunda aşağıdakı sözləri yazıb:"Eynulla Fətullayev ölmək üçün yetişib. Əgər Elmar Hüseynovun ölümünə əksəriyyət kədərləndisə, Eynulla gəbərəndə bu alçağı tanıyan hər kəs deyəcək - itə it ölümü yaraşır" deyə, sayt bildirib.

**Deputatın bu qalmaqallı bəyanatına reaksiya verən Eynulla Fətullayev bildirib:** "Nəhayət, həqiqət anı gəlib çatdı - bütün Azərbaycan Rasim Musabəyovun aşıb-daşan ziyalılığını gördü. Mənim məqaləmdə onun haqqında bir dənə də olsun təhqiramiz söz yox idi. Mən sadəcə



Eynulla Fətullayev



Rasim Musabəyov

olaraq ona güzgüyə baxmağa və öz keçmişinə nəzər salmağa kömək etmişəm. Və inanın ki, mən bu adamın keçmişi və indisi haqda bildiklərimin çox az qismini yazmışam. Onun təhdidlərinə və məni öldürmək çağırışlarına gəldikdə isə deyə bilərəm ki, bu yaşlı və aciz adamın halına acıyıram.

Arqumentlər bitəndə insanlar silah gücünə əl atır. Musabəyov heç nəyə etiraz edə bilmədi-axı səni qəbrə qədər izləyəcək keçmişinə necə etiraz edəsən. Öz səhvlərini etiraf etmək və elədiklərinə görə səmimi şəkildə üzr istəmək heç vaxt gec deyil. Allah bağışlayandır".

Jurnalist Rasim Musabəyovun çağırışı ilə bağlı ölkənin baş prokuroru Zakir Qaralova, milli təhlükəsizlik naziri Eldar Mahmudova və daxili işlər naziri Ramil Usubova müraciət edib.

**E.Fətullayev öz müraciətində bildirib ki, R.Musabəyovun Elmar Hüseynovun qətli ilə müqayisə aparması bir çox suallar və narahatlıq doğurur:** "Belə çıxır ki, jurnalistin qatillərinin adı Musabəyova məlumdur. İndi o, parlament seçkiləri ərəfəsində digər jurnalistə divan tutmaq çağırışı ilə çıxış edir".

**E.Fətullayev istintaq orqanlarını deputat Rasim Musabəyovu Elmar Hüseynovun qətli işi ilə bağlı təcili şəkildə sorğu-sual etməyə, habelə parlament seçkiləri ərəfəsində öz təhlükəsizliyini təmin etməyə çağırıb:** "Görünür, Musabəyovun bağlı olduğu və maraqlarını müdafiə etdiyi bəzi xarici qüvvələr Azərbaycanda parlament seçkiləri ərəfəsində yeni iğtişaş və qarışıqlıq planlaşdırır. Bu da ciddi narahatlıq doğurur. Hüquq-mühafizə orqanları ən azı jurnalistin qətlinə çağıran deputatın əsas götürdüyü motivləri aydınlaşdırmalıdır".

# Əhali banklardan əmanətini kütləvi şəkildə çıxarır

## Mayda 116 milyon manatdan artıq əmanət çıxarılıb, ekspertlər bunun davamlı olacağını vurğulayır

**Mərkəzi Bankın rəsmi məlumatına görə, may ayı ərzində əhali banklardan külli məbləğdə-116 milyon manatdan artıq əmanət çıxarıb. Mart ayı ərzində 151, aprel ayı ərzində isə 64 milyon manatdan çox əmanət çıxarılmışdı. Ekspertlər bildirirlər ki, proses davam edəcək. Çünki Mərkəzi Bank adekvat və lazımi tədbirləri görmür.**




Ekspertlərin fikrincə, əmanətlərin kütləvi çıxarılması prosesi davamlı olacaq. Səbəblər isə müxtəlifdir. Bank sisteminə etimadın azalması, Mərkəzi Bankın banklara səmərəsiz nəzarəti, növbəti devalvasiya gözləntisi, gəlirlərin azalması əsas səbəblər sırasındadır. Ekspert Əkrəm Həsənovun sözlərinə görə, başqa səbəblər də var: "Məsələn, Konstitusiya Məhkəməsinin məlum qərarı göstərdi ki, banklarla münasibətlərdə qanun əhalini qorumur. Yəni borc alanların başına gətirilən əmanətçilərin də başına gətirilə bilər. Əsaslandırma da eyni olacaq: banklar şivən qaldıracaq ki, qərar bankların deyil, əmanətçilərin xeyrinə olsa, maliyyə sistemi çökəcək. Əmanətçilər narahatdır ki, əgər maliyyə sistemi borc alanların haqqının tanınması nəticəsində bankların bir neçə milyon itirməsinə görə çökə bilərsə, belə sistemə necə etibar etmək olar".

**Ekspertin sözlərinə görə, Konstitusiya Məhkəməsinin məlum qərarının əhalinin əleyhinə olması həm də onu göstərir ki, bankların problemli kreditlərinin onsuz da yüksək olan həcmi daha da artacaq:** "Problemli krediti çox olan bank əmanəti nəyin hesabına qaytaracaq?"

**Ə.Həsənov qeyd edib ki, banklar maliyyə imkanları daxilində borc alanlara güzəşt etməlidir:** "Böyük ehtimalla banklar ağlaşma quracaq ki, maliyyə vəziyyətləri qənaətbəxş deyil, buna görə də az güzəşt edə bilərlər. Bu məlumatla təbii ki, əmanətçilər də tanış olacaq və əmanətlərini maliyyə vəziyyətləri qənaətbəxş olmayan banklara etibar etdiklərini biləcəklər. Beynəlxalq Banka milyonlarla borcu olan "sahibkarların" tutulması isə növbəti səbəbdir. Əmanətçilər düşünür ki, deməli, onların banklara qoyduğu əmanətlər hər yoldan keçən dələduza kredit kimi verilir və sonradan qaytarılmır. Qaytarılmırsa, bank sabah əmanəti necə qaytaracaq? Nəhayət, əmanətçilərin çoxu artıq bilir ki, onların əmanəti dövlət tərəfindən deyil, hüquqi statusu və pulları necə idarə etməsi məlum olmayan adi hüquqi şəxs, fond tərəfindən sığorta edilib. Yəni bir neçə bank müflis olsa, həmin fond da müflis olacaq və dövlət əmanətlərə görə məsuliyyət daşımayacaq. Deməli, sığortaya da bel bağlamaq olmaz".

**Ekspert vurğulayıb ki, çıxış yolu Mərkəzi Bankın və kommersiya banklarının daha şəffaf olması, ictimaiyyəti dəqiq və vaxtında məlumatlandırması, əhali ilə kompromisə getməsidir:** "Etimadı bərpa etmək lazımdır. Əks halda, maliyyə sistemi doğrudan da çökəcək".

❑ RÖYA

# "SOCAR-ın borcu Azərbaycanın borcundan çoxdur"

**"İlk dəfə olaraq SOCAR-in borc öhdəlikləri Azərbaycan dövlətinin borc öhdəliklərindən çox olub". İqtisadçı ekspert Qubad İbadoğlu bu barədə bildirib. O qeyd edib ki, SOCAR son 5 ildə ilk dəfə olaraq 2014-cü ilin maliyyə hesabatını ilin ikinci yarısından etibarən özünün internet səhifəsi vasitəsilə əlçatan edib:**

"Maliyyə məlumatlarının təhlili göstərir ki, hesabat dövründə cəmi borclar 812 milyon manat artaraq 5 milyard 797 milyon manata çatıb. Borcların 2 milyard 212 milyon manatını qısamüddətli borc öhdəlikləri təşkil edib. Borcların struktur təhlili göstərir ki, 1 il ərzində artımın 91,4 faizi və ya 748 milyon manatı qısamüddətli borc öhdəlikləri olub. Müqayisə üçün qeyd edək ki, 01 yanvar 2015-ci il tarixə Azərbaycan Respublikasının xarici dövlət borcu 5 milyard 81 milyon manat olub ki, bu da SOCAR-ın borcundan 716 milyon manat azdır".

❑ RÖYA

# "Onların çiyinlərində əli kərimlilər böyük-böyük evlər, mebellər, paralar qazanıblar"

**Azərbaycan cəmiyyətində qəribə bir tendensiya yaranıb. Xüsusilə bu hal demokratik düşərgə daxilində baş alıb gedir. Belə ki, hər hansı bir siyasi qurum daxilindəki prosesləri işıqlandıran mətbuat orqanları, baş verənləri dilə gətirən şəxslər birmənalı olaraq, həmin qurum tərəfindən ciddi tənqid, təhqirlərə məruz qalır. Maraqlıdır ki, bu prosesdə daha aktiv iştirak edən partiya rəhbərliyidir.**

Bu xoşagəlməz hal daha çox son günlərdə AXCP daxilində baş verən məlum proseslərdən sonra gündəmi zəbt etdi. Partiyadan qovulan, istefa verən şəxslərin mətbuat orqanlarında səsləndirdikləri haqlı iradlar rəhbərliyin qınağına tuş gəldi. Həmin şəxslərlə birlikdə müsahibə verdikləri mətbuat orqanları, öndə "Yeni Müsavat" olmaqla, hədəf götürüldü. Bir anda hamı "satqın" oldu.

Demokratik dünya ölkələrində telekanallar və mətbuatın əsas işıqlandırdığı məsələlərdən biri siyasi qurumlar daxilində gedən proseslərdir. Təkcə Türkiyəni misal çəkmək yetər. Qardaş ölkədə mətbuat və tv-lərin bəlkə də əsas gündəmində olan məsələ siyasi partiyalardır. Bütün bunları gördükdən sonra Azərbaycan demokratik düşərgəsinin daxilindəki bu "sağalmaz xəstəliy"in səbəbini anlamaq olmur.



**Natiq Miri:**
"Bu insanlar əli kərimlilərdən ötrü mücadilə aparıblar"



**Elman Fəttah:**
""Azadlıq" qəzeti hətta "Kaspi" qəzetində olan yazıları belə təkrar verirdi"

**Politoloq Natiq Miri hesab edir ki, bu cür proseslərin mətbuatda işıqlandırılması normal haldır:** "Siyasi partiyalar daxilində gedən proseslər cəmiyyət üçün hər bir halda maraqlıdır. Cəmiyyətə də bu informasiyaları çatdıran mətbuat orqanlarıdır. Bu onların missiyasıdır. Normal qəbul edirəm. Baxmayaraq ki, partiya funksionerləri bəzi mətbuat orqanlarını özlərinə düşmən kimi qəbul edirlər. Azərbaycan siyasətində yaraşmayan, təəssüf doğuran məsələlərdən biri də siyasi partiyaların öz üzvlərinə "xain" deməsidir. Nəzərə almaq lazımdır ki, bu insanlar həyatlarını, gəncliklərinin ən gözəl illərini müxalif partiyalarda xərcləyiblər. Maddi və mənəvi cəhətdən onların heç bir qazancları olmayıb. Gözləntilər bu insanları siyasi partiyalarda qocaldıb. Bunu bir anda xərcləyib, tamamilə silmək, üstəlik, o insanları təhqir etmək mənə elə gəlir ki, çox alçaldıcı yanaşmadır. Bu istər AXCP, istər Müsavat, istərsə də digər partiyalarda olsun, fərqi yoxdur. Bu insanlar ideologiyanı canlarında daşıyan mübariz insanlardır. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını qurban veriblər. Bunları bir anda silmək, aşağılamaq, partiyadan çıxarmaq qətiyyən olmaz. Bu qədərmi ucuzdur insan həyatı? Əslində bu insanlar əli kərimlilərdən ötrü mücadilə aparıblar. Onların çiyinlərində əli kərimlilər böyük-böyük evlər, mebellər, paralar qazanıblar. Məhz bunların çiyinlərində yeriməklə bu statusları qazanıblar. İndi necə olur ki, bir doğru sözün müqabilində bu insanlar alçaldılır, partiyadan çıxarılır, şantaj xarakterli cürbəcür oyunlar onların başına gətirilir. Bunlar qəbul olunmazdır. Bu onları göstərir ki, Azərbaycan siyasətində mənəvi dəyərlər yox olub. Bu gün müxalif qurumlara olan inamsızlığın kökündə duran faktorlardan biri də budur. İnamı bu cür itirdilər. Amma Əbülfəz Elçibəyin dövründəki siyasətdə belə deyildi. Çünki o vaxt əxlaq deyə bir şey var idi. Siyasət hər bir insanın əxlaqına uyğun olaraq yerinə yetirilirdi. Amma bu gün siyasət yalnız nəticəyə söykənir. Fikir versək görərik ki, yeni maliyyə cığırları açmaq üçün müxtəlif cür oyunlara girirlər. İnsanları xərcləyirlər, həbs etdirirlər. Bu insanların taleyi ilə oynamaq mümkünmü? Əgər bu cür edərsinizsə, sabah qarşınızda görərsiniz. Bu gün qarşılarında gördükləri də məhz budur. Ona görə də onların mitinqlərinə min nəfərdən artıq insan gəlmir".

**Natiq Miri AXCP-nin "Yeni Müsavat"a savaş açmasının kökündə duran səbəblərdən də danışdı:** "Bu yanaşmanın özü səhvdir. Bu onların birbaşa mənəviyyatını ortaya qoyan məsələdir. Bir informasiya əgər doğrudursa, onun hansı media orqanında çıxmasının nə dəxli var? Demək, burada birbaşa düşmənçilik, həzm etməmək sindromu var. Əsas odur ki, çıxan informasiya doğru olsun. Bu informasiyaların böyük əksəriyyəti də həqiqətə söykənir. Onu anlamaq lazımdır ki, bu dünyada ən çətin şey doğruları söyləməkdir. Bunları yandıran da məhz budur. Əgər doğru deyilsə, "Yeni Müsavat"da çıxan yazılar onları nə üçün yandırır? Demək, hədəfə dəyib. Hədəfə dəydiyi, onların "Yeni Müsavat"ı həzm etmədikləri, düşmənçilik göstərdikləri üçün bu cür üsyan edirlər. Hesab edirəm ki, bu, eynilə onların qarşısına çıxacaq. Yanlışlıqlarını o zaman görəcəklər".

Qeyd edək ki, 10 ay öncə Müsavat Partiyası daxilində baş verən prosesləri AXCP-nin mətbuat orqanı funksiyasını yerinə yetirən "Azadlıq" qəzeti geniş işıqlandırırdı. Bunların fonunda mətbuat anlayışı olmayanların "Yeni Müsavat"a olan hücumları sadəcə gülüş doğurur.

**Müsavat başqanının müavini Elman Fəttah baş verənləri xoşagəlməz hadisələr adlandırdı:** ""Azadlıq" qəzeti sistemli olaraq, Müsavat Partiyasına qarşı olanları, "Yeni Müsavat" da AXCP və Milli Şuraya qarşı olan yazıları dərc edir. Mən bunları intriqanın sistemləşdirilməsi və gündəmdə saxlanılması hesab edirəm. Hər ikisinə qarşı olmuşam. Düşünürəm ki, heç kəs əlində olan imkandan siyasi münasibətləri korlayacaq müstəviyə daşınmasının iştirakçısı olmamalıdır. Ona görə də xoş hal deyil. Bir dəfə demişdim ki, "Azadlıq" qəzeti hətta "Kaspi" qəzetində olan yazıları belə istinadən özündə dərc edirdi. Eləcə də "Yeni Müsavat" AXCP-yə qarşı olan xəbərləri verir. Bütün bunların nəticəsində müxalifət daxilində olan məsələlər qabardılır. Yekun etibarı ilə ümumi mübarizəyə xələl gətirən məsələlərdir".

**Elman Fəttah Müsavatda olan narazıların digər mətbuat orqanlarına müsahibələrinə də münasibət bildirdi:** "Nəinki "Azadlıq", hətta "Kaspi" qəzetinə belə narazılardan müsahibə verənlər olub. Biz bunları sadəcə müşahidə etmişik. Hər bir insanın müsahibə verdiyi mətbuat orqanı onun haqqında fikir formalaşdırmağa yetir. O siyasətçinin kimliyi artıq məlum olur. Hər hansı bir irada ehtiyac yoxdur. Kim hara müsahibə verirsə, onun haqqında qənaətlərimiz formalaşır".

**Başqan müavini Türkiyə-Azərbaycan cəmiyyətlərini müqayisə etdi:** "Türkiyədə bizlə müqayisədə demokratiya var. Parlament tipli respublikalarda partiyalar hər şeydən daha çox diqqətdə olur. Bizdə isə tam fərqlidir. Siyasət meydanı hakimiyyətin repressiv nəzarətinə keçib. Yaxşı olardı ki, mətbuat orqanları daha çox bunu işıqlandırsınlar. Müsavata qarşı olan saxta fikirləri, yaxud hakimiyyətin nəzarətində olan bir şəxsin yalanlarını hansısa mətbuat orqanı verməklə, nüfuzunu aşağı salır".

❑ **Cavanşir ABBASLI**



# Gəncədə Rəsulzadənin büstü hələ də gizlədilir...

## Büstün təmir ediləcəyi bildirilsə də, bu, aylardır problemə çevrilib...

**Azərbaycan Demokratik Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadənin Gəncə şəhərindəki büstü ilə bağlı qalmaqal davam etməkdədir. Şəhər Dəmiryolçular parkında qoyulan heykəllə bağlı uzun müddətdir qalmaqal yaşanır. Belə ki, Rəsulzadənin büstünə üç aydır torba keçirilib və büstün təmir ediləcəyi bildirilir. Ancaq heç bir iş aparılmır.**

Şəhər sakinlərinin musavat.com-a verdiyi məlumata görə, büstün başından torba üç aydır ki, çıxarılmır. Dəfələrlə edilən müraciət və etirazlara baxmayaraq, ortada nəticə yoxdur. Büst nə təmir edilir, nə də başından torba çıxarılır. Qeyd edək ki, büstlə bağlı bir müddət əvvəl Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev də danışmışdı və məsələnin ona aidiyyəti olmadığını bildirmişdi: "Həmin park Dəmir yolu İdarəsinin balansındadır". Ancaq vəziyyətdən yaxından məlumatlı olan sakinlər bildirirlər ki, büst məhz icra başçısının göstərişi ilə 28 may ərəfəsində qapadılıb. Məqsəd də 28 mayda büstün ziyarət olunmaması olub. İyunun 1-də abidənin üzərindəki çuval götürülsə də, bir gün sonra yenidən qapadılıb.

Məsələ bir müddət əvvəl parlamentdə də müzakirə mövzusu olub. Gəncə Şəhər İcra Hakimiyyəti və "Azərbaycan Dəmir Yolları" QSC-nin rəsmiləri isə mətbuata verdikləri açıqlamalarda məsuliyyəti bir-birilərinin üzərinə ataraq, sözügedən parkın onların balansında olmadığını sübut etməyə çalışıblar.

Qeyd edək ki, Məhəmməd Əmin Rəsulzadənin ölkənin müxtəlif yerlərində olan azsaylı abidələrinə qarşı vandalizm halları davam etməkdədir. Bir neçə il əvvəl M.Ə.Rəsulzadənin qurduğu universitetdən adı götürülüb. Bakının mərkəzində heykəlinin ucaldılmasına qeyri-rəsmi qadağa var. Bakı Metropoliteninin ərazisindən büstü də götürülüb. Metronun "28 May" stansiyasının içərisindəki divarda həkk olunan portreti sökülüb. Həmçinin ulu öndərin Ağcabədi və Ağsu rayonlarında olan büstləri də götürülüb. Dövlət başçısı İlham Əliyevin Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyi ilə bağlı verdiyi sərəncam da Azərbaycan Demokratik Respublikasının banisinə olan münasibəti dəyişdirməyib.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015



# "90-cı illər" Günəşi və kosmosun havası

Zamin HACI
zaminhaci@gmail.com

"Şərq ölkələrində kəndlilərin Avropa və Amerikadan gələn turistləri aldadıb belə şeyləri satdıqlarını söylədi. Hətta bir dəfə ölü bir it leşinin tüklərini qırxaraq onu bir hökmdarın mumiyası adı ilə amerikalı turistə sata bilmişlər".

***(Əziz Nesin, "Sizin ölkədə eşşək yoxdurmu")***

****

**Azərbaycan Milli Elmlər Akademiyasının üzvü olan alimlərimiz yenə qəlbimizi fərəhlə doldurublar. Hətta qəlbimizdə fərəhdən yer qalmayıb, imkan olsa fərəhimizin qalan hissəsini xaricə satıb bəy kefində yaşayacağıq. Hazırda AMEA Kibernetika İnstitutu elə "Qəlbə dolan fərəhin artıqlarını ixrac etməyin səmərəli üsulları metodikasının prinsipləri üzərində gəzişmələr assosiasiyası" mövzusunda ciddi araşdırma aparır, bitən kimi sizə də xəbər verəcəyəm.**

Keçən ay mən bir maraqlı xəbər oxumuşdum, istərdim ondan sitatı görəsiniz: "Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarının maaşlarının tarif dərəcələrindən tutulan vergidə uyğunsuzluğun aradan qaldırılması üçün Nazirlər Kabinetinə müraciət edib. Vergi ödəmələrinə görə yaranan uyğunsuzluq 13 və 14-cü dərəcəli işçilərin - elmi tədqiqat institutlarının böyük elmi işçilərinin əmək haqlarının fərqlənməsinə gətirib çıxarır. 13-cü dərəcəli böyük elmı işçilərin aylıq əmək haqları 235, 14-cü dərəcəli elmi işçilərin əmək haqları 253 manat olsa da, bu uyğunsuzluğa görə 13-cü dərəcəyə aid edilən işçilər 14-cü dərəcəyə şamil edilən işçilərdən daha yüksək əmək haqqı alırlar".

Doğrudan da dəhşətli uyğunsuzluqdur. Buna görə hətta AMEA-nın şadlıq sarayına oxşayan binasına göydən fəlakət yağa bilərdi. Eyni zamanda bu xəbərdən bizdə 14-cü dərəcəli alimlərin yaşadığını öyrəndik. Açığı, mən 14-cü dərəcə qaynaqçı eşitmişdim, alimin 14-cü dərəcəsini təzə öyrəndim. Bu nəsə təzə bir şeydir. Elmin zirvəsi kimi bir rütbədir. Alim 14-cü dərəcəyə çatandan sonra artıq həqiqəti dərk edir, Kainatın yaranma sirlərindən agah olur, Hiqqs bozonunu *(ən cupbulu zərrəciklərdən biri)* gözüylə görür, hansı akademikə yaltaqlanmaq üçün hansı katibəyə nə almaq lazımdır, YAP-a girməyin ən münasib hava şəraiti hansı fəsildə olur və sairə hikmətləri intuitiv dərk edirmiş. 13-cü dərəcə alimlərin qarnında "Narxoz"un tələbələri kimi dəftər olsa da, 14-cü dərəcədə ümumiyyətlə yazı-pozu aradan qalxır. Yalnız şalvarın dal cibində müdirin, müvafiq akademikin ayaqqabısını silmək üçün palaz qırığı gəzdirilir.

6-8 iyul tarixlərində, yəni hazırda isə Bakıda prezident yanında Elm Fondunun, AMEA Şamaxı Ramazan Rəsədxanasının təşkilatçılığı ilə "Günəşdə baş verən proseslər: Günəş tipli ulduzların dəyişkənliyi və astroseysmologiyadan kosmik havaya qədər" mövzusunda beynəlxalq elmi konfrans qayırılır. Burada Azərbaycan, Özbəkistan, Belarus və sairədən alimlər Günəşin dəyişməsini pisləyəcəklər. Doğrudan da Günəş bəzən özünü pis aparır, gah çox isti olur, gah üfüqə sallanır, qış gəlir. Halbuki Özbəkistan, Azərbaycan və Belarus kimi ölkələri 25 ildir eyni adamlar idarə edir, heç vəzifədən enmək, qürub eləmək fikirləri yoxdur, əl vuranı da yandırırlar.

Alimlərimiz sanki bunu duyduqları üçün tədbirin açılış mərasimi olduqca ilginc elmi məkanda keçirilmişdir: Şıx çimərliyində, "Aysberq" istirahət mərkəzinin plyajında! İnsafən, Günəşin həyat və yaradıcılığını qiymətləndirmək üçün ən yaxşı yer elə çimərlikdir. Yaxşı çıxış edən alimlərə su tumanı *("plavkini" dilimizə belə çevirdim, narazı qalan özünü suya atsın, nə vecimə)*, qarğıdalı və şezlonq verilmişdir. Bu da onu göstərir ki, biz təkcə idman ölkəsi deyilik, bizdə elm də vardır!

Hələ siz tədbirin adına diqqət edin. Burada alimlərimiz astroloji proseslərin yerin altındakı öküzü tərpətməsinə, onun soncuqlamasına gətirməsinə toxunur, eyni zamanda kosmosda havanın yoxluğu haqda çürük nəzəriyyəni rədd edirlər. Əks halda, niyə bunun adını "kosmik hava" qoyublar? Bəli, kosmosda nəinki hava var, hətta Ayın səthində Xaçmaz pomidoru becərmək mümkündür. Yaxın illərdə biz Səyavuş Novruzovun başçılığı altında kosmonavt-bostançılarımızı Ayın görünməyən tərəfinə bu məqsədlə ezam edəcəyik. Görünən tərəfdə əksək, it-qurd bostanı oğurlayar.

# Obamadan Azərbaycanın da yerləşdiyi regiona İŞİD xəbərdarlığı

## "Onların kökünü kəsmək vaxt aparacaq"; İŞİD-lə Azərbaycan xaricində mübarizə elə Azərbaycan üçün mübarizədir...

**Region ölkələrinə İŞİD təhlükəsi öz aktuallığını saxlayır. Bu radikal qruplaşmaya qarşı Türkiyə, İran, Azərbaycan, koalisiya dövlətləri preventiv tədbirləri davam etdirsələr də, o da faktdır ki, terror birləşməsi sadalanan dövlətlərin maraqlarından doğan müəyyən fikir ayrılıqlarından, onlar arasında koordinasiyalı fəaliyyətin yetərli olmamasından, bəzən də sosial faktorlardan yararlanaraq, özünün təsir zonasını genişləndirməyə cəhd edir və bir çox hallarda buna nail də olur.**



Məsələn, bugünlərdə Şimali Qafqazda fəaliyyət göstərən "Qafqaz əmirliyi" radikal qruplaşmasının İŞİD-ə biət andı içməsi təhlükənin tədricən yayıla biləcəyinin anonsu sayılmalıdır. Məlumatlara görə, bir vaxt "əl-Qaidə"yə bağlı olmuş bu hörgütün öz "qibləsi"ni dəyişməsi hazırda İŞİD-in Dağıstanda daha populyar olması ilə bağlıdır.

Əksər ekspertlər isə hesab edirlər ki, belə bir sədaqət andının içilməsindən sonra İŞİD Şimali Qafqazda daha da güclənməyə çalışacaq. Bu isə Azərbaycana birbaşa və böyük təhdiddir. Çünki İŞİD ideoloqları, bəlli olduğu kimi, "xilafət"in qara xəritəsinə Azərbaycanı və Şimali Qafqazı da daxil ediblər. İŞİD-in hərbi qüvvələrinin tanınmış komandirlərindən olan, Gürcüstanın Pankisi dərəsindən gəlmiş "Ömər əl-Şişani" ləqəbli Tarxan Batiraşvili isə atası ilə telefon danışığında "tezliklə minlərlə tərəfdarı ilə birlikdə Rusiyaya qarşı mübarizəyə başlayacaqlarını" demişdi.

"Rusiyaya qarşı mübarizə" dedikdə sözsüz ki, həmsərhəd və müsəlman Azərbaycan da hədəfə gələcək. Bu üzdən İŞİD təhlükəsi indi dünya üçün ən ciddi təhdidlərdən biri olmaqla Azərbaycanı, Orta Asiya respublikalarını, Türkiyəni, İranı, habelə Rusiyanı ciddi narahat edir.

***

**Bu arada ABŞ prezidenti Barak Obama İŞİD-lə bağlı keçirilən qlobal təhlükəsiz konfransının yekunlarına dair etdiyi çıxışda terrorçu qruplaşma ilə mübarizənin daha da gücləndiriləcəyini söyləyib:** "İŞİD-lə mübarizə qısa müddətli olmayacaq. Onun kökünün kəsilməsi tezliklə baş verməyəcək. İŞİD fürsətçi və çevik təşkilatdır. Terrorçular Suriya və İraqda xalqın arasında gizlənməklə özlərini qoruyurlar. Buna görə də onların kökünü kəsmək vaxt aparacaq. Lakin İŞİD-in həm Suriya, həm də İraqda son dövrdəki itkiləri təşkilatın məğlub ola biləcəyini sübut etdi. Ona qarşı Suriyada hücumlarımızı gücləndirəcəyik. Suriyada vətəndaş müharibəsini sona çatdıracaq və xalqı İŞİD-ə qarşı birləşdirəcək tək yol prezident Bəşər Əsədin olmadığı yeni bir hökumətdir".

Bununla belə, Ağ Ev başçısı İŞİD-li mübarizə üçün xaricə ABŞ əsgərlərini göndərməyəcəyini də söyləyib.

***

Regiona İŞİD təhlükəsinin real olduğunu artıq İran da qəbul edir. Bunun təzahürüdür ki, İranın müdafiə naziri, general-mayor Hüseyn Dehqan ötən həftə qruplaşmaya xəbərdarlıq xarakterli mesaj göndərmişdi. O, "qırmızı xətti" keçərsə, İŞİD-ə qarşı genişmiqyaslı əməliyyata başlayacaqlarını və tezliklə İŞİD-in sonunun gələcəyini bəyan eləmişdi. "Qırmızı xətt" isə İrqadakı şiələr üçün müqəddəs sayılan məkanlardır.

**İranın Azərbaycandakı səfiri Möhsün Pak Ayin isə bu xüsusda təzəlikcə deyib:** "İŞİD özünü çox təbliğ edir və malik olduğu gücü 5 qat artıq göstərməyə çalışır. İŞİD-ə çoxlu köməkliklərin göstərilməsinə baxmayaraq, İraqda bu terror təşkilatı o qədər də güclü deyil və demək olar ki, zəifləyib. Suriyada da öz hədəflərinə çata bilməyiblər. Yəməndə bunlar "əl-Qaidə" adı ilə fəaliyyət göstərirlər və burda da bir uğur əldə edə bilməyərək məğlubiyyətə düçar olublar. Təbii olaraq İŞİD-in və terror qruplarının hədəflərindən biri də Qafqazdır. Qafqazda iki hədəfləri var: birinci məqsəd Şimali Qafqazda, Rusiyanın müsəlman əyalətlərində təhlükə törətməkdir. Onlar Rusiyaya təzyiqlər göstərməklə bu ölkənin Suriya və İraqdakı mövqeyində dəyişikliyə nail olmağa çalışırlar. İkinci hədəf isə şiə ölkəsi Azərbaycandır və bunu dəfələrlə bəyan ediblər".

**Diplomat onu da qeyd edib ki, İŞİD-lə mübarizə bir ölkənin öhdəsindən gələcəyi iş deyil:** "Regional ölkələr birgə səy göstərməli, birləşərək terrorizmin yeni növü olan İŞİD və "əl-Qaidə" terrorçularına qarşı birgə mübarizə aparmalıdır. Qərb ölkələri də İŞİD-i dəstəklədiklərinə görə nüfuzları əldən gedir. Bunu dərk edirlər və bir qədər mühafizəkar olublar. Hazırda Qərb ölkələri arasında İŞİD-i müdafiə etmək mövzusunda fikir ayrılığı yaranıb. Bu da regionda İŞİD-lə mübarizə üçün yaxşı fürsət yaradıb".

***

Beləliklə, radikal terrorçu qruplaşmanın kökünü kəsməkdən ötrü birgə mübarizənin alternativi görünmür. Vladimir İliç Lenin hər nə qədər ziddiyyətli və avantürist şəxsiyyət olsa da, onun yaxşı bir sözü var ki, "təhlükəni gözləməkdənsə, ona qarşı getmək məsləhətdir". Təhlükə isə artıq sərhədlərimizdə, içimizdədir. Bu mənada İŞİD-lə Azərbaycan xaricində, Şimali Qafqazda, Türkiyədə mübarizə elə Azərbaycan naminə mübarizədir.

❑ Siyasət şöbəsi





# MTN təkzib edir

Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi (MTN) haker hücumlarına yardım edən İtaliyanın "Hacking Team" şirkəti ilə əməkdaşlıq etməsi barədə yayılan məlumatları təkzib edib.

"Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi bu məlumatları tam təkzib edir. Yayılan məlumatlar tamamilə yalandır" - MTN-in İctimai Əlaqələr İdarəsinin rəhbəri Arif Babayev deyib.

AzadlıqRadiosunun məlumatına görə, İtaliyanın "Hacking Team" şirkəti polisin vətəndaşlara haker hücumlarına yardım göstərir.

İndi isə bu şirkətin özü hücuma məruz qalıb. Şirkətin twitter hesabını ələ keçirən naməlum hakerlər daxili yazışmaları, 500 GB-lik (theverge.com 400 GB yazır-red.) daxili faylları açıblar.

"Hacking Team"in 40-dan çox işçisi var və onlarla ölkədə hüquq-mühafizə orqanlarına kommersiya məqsədli haker proqramları satır. Həmin ölkələrin arasında Mərakeş, Efiopiya, Birləşmiş Ərəb Əmirlikləri, o cümlədən Azərbaycan var. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin adı şirkətin müştəriləri sırasındadır. Müştərilər içində ABŞ-ın Federal Təhqiqatlar Bürosu (FBİ), Çin, Avstraliya, İspaniya və İraqın adlarına da rast gəlinir.

**Rusiyanın ilk milyarderlərindən biri, məşhur fermer German Sterliqov ailəsi ilə birlikdə Qarabağa köçüb. Qəribəsi odur ki, rus mediası bu xəbəri davamlı şəkildə tirajlasalar da, heç yerdə Azərbaycana məxsus olan Qarabağın 20 ildən çoxdur işğal altında olmasını xatırlatmırlar. Sanki rus milyarder Ermənistanın hansısa vilayətinə köçüb və burada qeyri-adi heç nə yoxdur.**



## Qarabağa köçən rus milyarder Bakını hərəkətə gətirdi

### Azərbaycan XİN araşdırmalara başladı; **Hikmət Hacıyev:** "Bu şəxs qeyri-qanuni şəkildə Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edib"



Rusiyanın millətçi qanadına yaxın adamlardan sayılan German Sterliqovun Rusiya hakimiyyətindən incidiyi üçün bu qərarı verdiyi iddia olunur. Ancaq nə qədər axmaq adam olasan ki, müharibənin hər an başlayacağını bilə-bilə, özü də terrorçu bir rejimin kök saldığı özgə torpağında ailə-uşaqla yaşamağa qərar verəsən. Təxminlər var ki, burada hansısa ayrı planlar da var, ermənilər rus ailələrindən ibarət bir məkanın yaradılmasına nail olmaqla özləri üçün bufer zona yaratmaq, Moskvanın Qarabağ ermənilərini müdafiəsi üçün əsaslar yaratmaq istəyirlər.

Hazırda Qarabağda olduğu deyilən Sterliqov həyat yoldaşı və 5 övladı ilə birlikdə təsərrüfat işləri ilə məşğul olmağa başlayıb. German Sterliqov Vkontakte səhifəsində tərk etdiyi evin şəkillərini yerləşdirib. Sahibkar gedərkən öz köməkçisinə Slobodadakı fermasındakı mal-qarasını, atlarını, avtoparkını satmağı tapşırıb. **"O, iyulun 4-də Dağlıq Qarabağa gedib. Nə vaxt qayıdacağı bilinmir, amma o, mütləq qayıdacaq. Onun getmək üçün ciddi səbəbləri var idi. Bu, cinayətkarlar deyil, daha yüksək təbəqədir"**, - deyə köməkçisi Polina Sirota rus mətbuatına bildirib. Qeyd edək ki, Qerman Sterliqov Rusiyada 1990-cı illərdə məşhurlaşmağa başlayıb. O, həmin illərdə ölkədə ilk xammal ticarəti birjası "Alisa"nı yaradıb.

ANS rusiyalı sahibkarın Qarabağa getməsi ilə əlaqədar Rusiya səfirliyi ilə əlaqə saxlayıb. Səfirlikdən qeyd edilib ki , bununla bağlı heç bir məlumat verə bilməyəcəklər.

İstənilən halda bu faktın Kremllə Azərbaycan arasında növbəti dəfə gərginlik yarada biləcəyi ehtimal olunur. Moskva bunu istəmirsə, vətəndaşı ilə bağlı qanuni ölçü götürməlidir.

### "Moskvaya nota göndərmək lazımdır"

**Politoloq Hikmət Hacızadə dedi ki, rus iş adamı haqqında bəzi məlumatlar əldə edib:** "O, bir az qəribə adamdır. Romantik, macəraçı, çox işləyən, fərqli ideyalarla çıxış edib onu reallaşdırmaq istəyən şəxsdir. İndi də belə bir ideya başına vurub, deyib, "Qarabağa köçürəm". Səbəb də odur ki, onu Rusiyada incidiblər. Sadəcə, küyə düşüb. Normal adam işğal altında olan torpaqlarda yaşamağa qərar verməz. Ancaq əlbəttə ki, bunu boş verməк olmaz, məsələyə sərt şəkildə etiraz etmək lazımdır. Bizim Xarici İşlər Nazirliyi Rusiyaya nota verməli, sorğu göndərməlidir ki, izahat verilsin". **H.Hacızadənin sözlərinə görə, prinsipcə Rusiyada belə məsələləri məhdudlaşdırmaq üçün hansısa qanun yoxdur:** "Ancaq bu da var ki, Rusiya Qarabağı "müstəqil subyekt" kimi tanımır. Məhz bunu əldə tutub Moskvaya nota göndərmək lazımdır".

**Rəsmi Bakı Dağlıq Qarabağa köçən rus milyarder German Sterliqovla bağlı araşdırmaya başlayıb. Bu barədə XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. Onun sözlərinə görə, German Sterliqov adlı şəxsin və onun ailə üzvlərinin Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş ərazilərində qeyri-qanuni yerləşməsi faktı hazırda araşdırılır:** "Bu şəxs qeyri-qanuni şəkildə Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə səfər edib və "Dövlət Sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununu pozub. Müvafiq prosedurlara əsasən aparılan araşdırmanın nəticəsinə uyğun olaraq bu şəxsin adı arzuolunmaz şəxslər siyahısına daxil ediləcək".

## Qarabağın baş separatçısının Londona yolunu kim kəsdi?

**Qarabağ separatçılarının lideri Bako Saakyanın iyulun 8-nə təyin olunmuş çıxışı barədə informasiyaya Beynəlxalq Münasibətlər üzrə Britaniya Kral İnstitutunun ("Chatham House") saytının "events" bölümündə rast gəlinmir.**

"Chatham House" bundan əvvəl Saakyanı Qarabağ və regional təhlükəsizlik məsələlərinə dair çıxış etməyə dəvət etdiyi haqda xəbər vermişdi. Qeyd edək ki, Azərbaycan XİN B.Saakyanın Londona dəvət olunması ilə bağlı iyulun 1-də etiraz bəyanatı ilə çıxış edib. Böyük Britaniyanın Azərbaycandakı səfiri İrfan Siddiq XİN-ə dəvət olunub və xarici işlər nazirinin müavini Xələf Xələfov tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma separatçı rejimin başçısı kimi özünü təqdim edən Bako Saakyan adlı şəxsin Böyük Britaniyaya səfəri və "Chatham House" - "Kral Beynəlxalq Münasibətlər İnstitutu"nda iyulun 8-də keçirilməsi nəzərdə tutulan tədbirdə iştirak edəcəyi ilə bağlı Azərbaycan hökumətinin qəti etirazı bildirilib. Bu kimi halların Azərbaycan və Böyük Britaniya arasında mövcud olan dostluq və strateji münasibətlərin ruhuna uyğun olmadığı vurğulanıb, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş addım kimi qiymətləndirilib.



**Qabil Hüseynli:**
"Bu məsələnin mütləq BMT-nin Təhlükəsizlik Şurası səviyyəsində müzakirəsinə nail olmaq lazımdır"



**Arzu Nağıyev:**
"Azərbaycan XİN-in bəyanatı da öz müsbət təsirini göstərdi"

Səfir İ.Siddiq Böyük Britaniyanın Dağlıq Qarabağdakı rejimi tanımadığını və onunla heç bir əlaqəsinin olmadığını deyərək, Azərbaycanın narahatlığı barəsində ölkəsinin Xarici İşlər Nazirliyinə məlumat verəcəyini diqqətə çatdırıb.

Həmçinin XİN-in təlimatı əsasında Azərbaycanın bu ölkədəki səfirliyi tərəfindən məsələ ilə bağlı Böyük Britaniya XİN-də görüş keçirilib və müvafiq etiraz məktubu təqdim edilib.

Azərbaycanın Böyük Britaniyadakı səfirliyinin məktubuna cavab olaraq, Böyük Britaniya XİN-in məktubunda bildirilib ki, Böyük Britaniya Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və müstəqilliyini dəstəkləyir, Dağlıq Qarabağda yaradılmış rejimi tanımır və Böyük Britaniyanın bu mövqeyi dəyişməz olaraq qalır.

Məktubda separatçı rejimin başçısının Böyük Britaniyaya səfərinin hökumət tərəfindən təşkil edilmədiyi və onun Londonda olacağı müddətdə heç bir hökumət rəsmisi ilə görüşünün olmayacağı xüsusilə vurğulanıb.

"Chatham House" "Turan" İnformasiya Agentliyinin Saakyanın çıxışı haqda informasiyanın tədbirlər proqramından çıxarılmasına dair yazılı sorğusunu cavablandırmaqdan imtina edib. "Chatham House"nin saytında hazırda yalnız 3 tədbir haqda məlumat var.

Azərbaycan XİN-dən Saakyanla bağlı son rəsmi informasiyanı almaq mümkün olmadı. Amma ekspertlər məsələyə daha ciddi müstəvidə yanaşmağı zəruri sayırlar. Bundan əvvəl Qarabağ separatçılarının səsi Rusiya, ABŞ, Fransa və digər ölkələrdən də gəlib. O, rahat şəkildə dünyanı gəzir, xeyriyyə marafonlarında iştirak edib pul dilənir, efirə çıxır, görüşlər keçirir, ancaq beynəlxalq məhkəmə qarşısında qalmalı olan bu caniyə qapıların bağlayan dövlətlər yoxdur. Hansı ki, Krım separatçılarına fərqli münasibət var və Avropa ölkələri hətta Rusiyanın bəzi rəsmilərini də "qara siyahı"ya salıb. Ötən həftə Finlandiya adı Avropa İttifaqının sanksiyalarla bağlı siyahısında olan Rusiya Federasiyası Dövlət Dumasının sədri Sergey Narışkini ölkəyə buraxmadı. Lakin Azərbaycanın bir hissəsini qəsb edən terrorçuların başçısı dünya ölkələrinə sərbəst giriş-çıxış hüququna malikdir.

**Politoloq Qabil Hüseynli "Yeni Müsavat"a bildirdi ki, bundan əvvəl də İngiltərədən öncə Fransa Azərbaycana qarşı qeyri-etik, qeyri-normal, arxadan zərbə xarakterli hərəkətə yol verməşdi:** "İki ay əvvəl Fransa QHT-lərdən birinin adı ilə Qarabağ separatçısını Parisə dəvət etdi. Amma ona tətbiq edilən protokol qaydaları dövlət başçılarının qarşılanmasına tətbiq edilən protokol qaydalarına yaxın idi. Yəni həmsədr dövlət separatçı rejimi maskalanmış bir formada qəbul etdi. Hətta bir sıra dövlət qurumlarında da görüşlər keçirdi. Bu, Fransanın Azərbaycana etdiyi ən böyük pisliklərdən biri idi. Bunun ardınca İngiltərə eyni ssenarini təkrarlamaq niyyətində idi. Yəni bunlar açıq-aşkar qondarma respublikanı de-yure tanımaq məqsədilə sanki bir prosesə girişiblər və bu prosesdə beynəlxalq hüquq normalarını necə ayaqlar altına alıb tapdadıqlarına əhəmiyyət vermirlər. Qərb dövlətləri indiyədək Azərbaycana təzyiqin müxtəlif formalarını seçmişdilər. Yəni indiyədək insan hüquqlarına dair bir sıra QHT-lərin xətti ilə, bəyanatlar verməklə işi aparırdılarsa, sonradan məsələni böyüdərək beynəlxalq mətbuat səhifələrinə çıxartdılar. KİV-lərdə bəzən "barmaqdansorma" faktlar əsasında Azərbaycan əleyhinə yazılar verməyə başladılar. İndi isə daha təhlükəli bir işə əl atıblar. Söhbət separatçı rejimin bir növ leqallaşdırılmasından gedir. Özü də burada ciddi riyakarlığa yol verirlər. Məsələn, bir neçə gün bundan əvvəl G-7-nin zirvə toplantısında İkinci Dünya müharibəsindən sonra formalaşmış sərhədlərin pozulmaması haqqında bəyanat verdikləri halda, özləri öz bəyanatlarında qaldırdıqları müddəaları, yəni Helsinki Yekun Aktının əsas müddəalarını pozmağa başlayıblar".

**Q.Hüseynli qeyd etdi ki, Azərbaycan tərəfi məsələnin üstünə ciddi surətdə getməli, nota ilə iş bitməməlidir:** "Bu məsələnin mütləq BMT-nin Təhlükəsizlik Şurası səviyyəsində müzakirəsinə nail olmaq lazımdır. Çünki burada Azərbaycanın ərazi bütövlüyünə qəsd, müharibənin yenidən qızışdırılmasına cəhd elementləri var. Ancaq BMT Təhlükəsizlik Şurasının üzvü olan ölkələrin beynəlxalq hüquq normalarını, xüsusilə də ərazi bütövlüyü məsələsini heçə sayıb xristian təəssübkeşliyi platformasından çıxış edərək açıq surətdə ATƏT-in həll etməli olduğu bir məsələnin daha da mürəkkəbləşməsinə cəhdlər özünü göstərir".

**Politoloq Arzu Nağıyev isə düşünür ki, separatçının səfərinin təxirə salınması rəsmi Bakının reaksiyası nəticəsində baş verdi:** "Azərbaycan XİN-in bəyanatı da öz müsbət təsirini göstərdi. Lakin Böyük Britaniyanın Azərbaycandakı səfirliyi bu hadisəni özünəməxsus tərzdə izah etdi. Yəni guya ki, Bako Saakyan Böyük Britaniyaya şəxsi dəvətlə səfər edir və hökumətin bu səfərin reallaşmasında heç bir rolu yoxdur. Belə ki, guya ki, "Chatham House" müstəqil təşkilatdır və öz tədbirlərinə kimi dəvət edəcəyini özü müəyyənləşdirir və bu kimi təşkilatların fəaliyyət prinsiplərinə Böyük Britaniya hökuməti təsir göstərmir. Maraqlı məqam isə ondan ibarət oldu ki, məhz britaniyalıların özləri, daha doğrusu, tanınmış siyasətçilər bu səfərin iki dövlət arasında gərginliyə səbəb olacağını bildirməklə müvafiq açıqlamalar verdilər. Lordlar Palatasının üzvü, lord Kilklunu və parlamentin üzvü Stefan Hepbörn "Chatham House"un bu dəvətini pislədilər. Məhz bu çıxışlar da səfərin baş tutmamasına öz təsirini göstərdi. Bundan başqa, Avropa Azərbaycan Cəmiyyətinin də səfərin ləğvində də rolu danılmaz idi. Bir sözlə, heç bir dövlət separatçı və daha dəqiq desək, rusiyameyilli qondarma qurumları qəbul etmək niyyətində deyil".

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015

# Bölgə müxalifətinin əsas seçki narahatlığı

## Rayonlarda ən ciddi problem əhalinin ədalətli seçkiyə inamının ölməsidir; müxalifətçilər bu inamsızlığı götürməyə çalışır, ancaq...



**Avropa Oyunları bitdikdən sonra ölkədə noyabrın 1-də keçiriləcək parlament seçkiləri mövzusu tədricən günün əsas mövzularından birinə çevrilməkdədir. Maraqlıdır, paytaxtla yanaşı bölgə müxalifəti də seçki hazırlıqlarına başlayıbmı və regiondakı seçkiöncəsi durumu necə dəyərləndirir?**

**Müsavat Partiyasının Şəki rayon təşkilatının sədri Həbibulla Manaflı** Şəki əhlinin seçkiyə heç bir inamı və marağı olmadığını dedi: "Əhali seçkilərin demokratik və şəffaf yolla həyata keçiriləcəyinə inanmır. Ona görə də müsavatçıların, digər müxalifət nümayəndələrinin seçki ilə bağlı apardığı təbliğat bir növ boşa çıxır. Yəni əhalinin mütləq əksəriyyəti seçkidə iştirak etməyəcəyini bildirir. Biz də Müsavat Partiyası olaraq seçki ərəfəsində əhali içərisində mübarizə əhval-ruhiyyəsini artırmaq, aktivliyi genişləndirmək, əhalini öz ölkəsinin sahibi olduğuna inandırmaq, əhalinin rəyi ilə hakimiyyət orqanlarının, xüsusən qanunverici orqanın formalaşmasının vacibliyini təbliğ edirik. Amma bu təbliğatımızın effekti olmadığını düşünürəm. Çünki əhali birmənalı şəkildə seçkilərin qeyri-demokratik keçiriləcəyini bildirir. Hazırda seçki ərəfəsində texniki məsələləri, məntəqələrə təyin ediləsi adamları, müşahidəçiləri müəyyənləşdirmək istiqamətində iş aparırıq".

**Müsavat Partiyasının Gəncə rayon təşkilatının sədri Oqtay Zeynallı seçki hazırlıqlarına başladıqlarını bildirdi:** "Gəncədə 4 dairə var. Onların üçündən biri qadın, ikisi kişi olmaqla, 3 namizədimizi irəli sürmüşük. 4-cü dairəyə də layiqli üzvümüzü yerləşdirəcəyik. Gəncədə müxalifət arasında seçkidən söhbət getsə də, əhali arasında getmir. Bəzi adamlar arasında da seçkidən söhbət düşəndə nəticəsinin bəlli olduğunu, saxtakarlıq olacağını deyirlər. Əgər seçkilər əvvəlkilər kimi keçirilsə, heç bir dəyişiklik olmasa, müxalifətdən komissiya üzvü olmasa, biz seçkiyə getməklə bunların saxtakarlığına legitimlik qazandırmış oluruq. Hazırlıqlarımızı görürük, amma sonu necə olacaq, bilmirik".

**Partiyanın Mingəçevir rayon təşkilatının sədri Nurəddin Rüstəmli rayonda seçki ilə bağlı passivlik olduğunu dedi:** "Seçki Məcəlləsində dəyişikliyin edilməsinə nail ola bilməməyimiz nəinki əhali arasında, üzvlərimiz arasında da sual doğurur ki, biz seçkiyə niyə gedirik. Bu günə kimi bütün seçkilərdə iştirak etmişik. Amma heç bir nəticə əldə edə bilməmişik. Çünki məntəqələrdə adamımız yoxdur. Seçki Məcəlləsinə də dəyişiklik etdirməyə gücümüz çatmadı. Sonuncu prezident seçkilərindən sonra pessimizmə yuvarlanmışıq".

**Müsavat Partiyasının Masallı rayon təşkilatının sədri Xasay Səfəroğluna görə, rayonda vəziyyət Azərbaycanda olan ümumi vəziyyətlə eynidir:** "Əhalidə hər hansı aktivlik hiss olunmur. Bu da əslində hakimiyyətin maraqlarına uyğundur. Hakimiyyətin seçki prosesinin müddətini 4 aydan 2 aya qədər qısaltmada əsas məqsədin mümkün qədər prosesi sakit, emosiyasız, əhalinin marağına səbəb olmadan keçirmək idi. Bundan başqa, insanların seçkiyə münasibətini həm də buna qədər olan seçkilərin saxtalaşdırılması və bunun da onlarda seçkilərin doğru-düzgün keçəcəyinə inamsızlıq yaratması şərtləndirir. Müsavat Partiyası olaraq seçkiyə həmişə hazırıq. Şərtlər, seçki mühiti normal olarsa Müsavat Partiyasının seçkilərin qalibi olacağı dəqiqdir. Gündəmin əsas mövzusu isə əlbəttə, seçki mühitinin yaxşılaşdırılması, mövcud olan əlverişsiz, ağır seçki şərtlərinin demokratikləşdirilməsidir. Hələ ki görünən budur ki, hakimiyyət mövcud qaydaların dəyişdirilməsində maraqlı deyil. Bununla belə, Müsavatın seçkilərə qatılmaqla bağlı qərarı var. Seçkilərə rəsmi start verildikdən sonra yəqin ki, Müsavat Partiyası da öz namizədlərinin siyahısını açıqlayacaq. O cümlədən Masallıdan olan namizədlər bilinəcək".

**Qazax rayon təşkilatının sədri İlqar Mustafayev seçkilər ədalətli keçirilərsə rayon camaatının səsverməyə gedəcəyini dedi:** "Hakimiyyət öncəki seçkilərdə həmişə saxtakarlıqla məşğul olub. Buna görə də bölgələrdə insanlar məntəqə, dairə, mərkəzi seçki komissiyalarının normal şəkildə fəaliyyətini tələb edir. Əgər o tələblər yerinə yetirilməsə, seçkilərin heç bir əhəmiyyəti olmayacaq. Saxtakarlıq yalnız seçki günü ilə bitmir. Biz tələb edirik ki, seçki şəffaf keçirilsin. Qazaxlılar seçkilərin şəffaf keçiriləcəyi təqdirdə səsvermədə iştirak etməyə söz verirlər. Rayonda indi təsərrüfat vaxtıdır. Ancaq əhalidə pul yoxdur, vəziyyət çox ağırdır".

❑ **Günel MANAFLI**

# Liderlər hansı dairələrdən namizədliyini verəcək?

## Müzakirələr davam etsə də, əksəriyyət yekun qərara gəlməyib...

**Bu ilin noyabrında keçiriləcək parlament seçkilərində müxalifət liderlərinin iştirak edəcəyi dairələr hələ dəqiqləşməyib. Əksər liderlər məsələ ətrafında dəfələrlə müzakirələr aparsalar da, namizədliyin irəli sürüləcəyi yer bəlli deyil.**

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, dairələri gizli saxlamağı qərara alıblar: "İstər Arif Hacılı, istər İsa Qəmbər və həmçinin Müsavat rəhbərliyində olan adamlar hələ ki hansı dairədən namizədliyini irəli sürəcəklərini açıqlamayıblar. Bu, seçki texnologiyasıdır. 2010-cu ildə İsa bəy namizədliyini irəli sürəndən sonra bilirsiniz ki, həmin dairədən namizədlərin yerdəyişməsi baş verdi. Ona görə liderlərin hansı dairəni seçəcəyini mümkün qədər açıqlamamağı, bunu son tarixə qədər təxirə salmağı düşünürük".

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə qeyd edib ki, sədr Mirmahmud Mirəlioğlunun namizədliyini irəli sürəcəyi dairə hələ dəqiqləşməyib:** "Hələ ki Sumqayıt şəhərində nəzərdə tutulub, amma dairələr müzakirə edilməyib. Tezliklə müzakirə edib yekun qərar verəcəyik. Hələ vaxta var. Amma başqa variantlarımız da istisna deyil".

**Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə isə deyib ki, sədr İqbal Ağazadə yenə 31 saylı dairədən namizədliyini vermək fikrindədir:** "İqbal bəy 31 saylı Xətai üçüncü seçki dairəsindən namizədliyini verəcək. O, bu dairədən üç dəfə deputat seçilib, dördüncü dəfə də cəhd edəcək. Çox güman ki, həmin dairədən də deputat seçiləcək".

**ADP sədrinin müavini Həsrət Rüstəmov da bildirib ki, sədr Sərdar Cəlaloğlunun namizədliyini irəli sürəcəyi dairə hələ müəyyənləşməyib:** "Dairə hələ müəyyən olunmayıb. Çox güman ki, 21 saylı Nəsimi seçki dairəsindən veriləcək. Amma hələ dəqiq deyil. Avqustda partiyanın məclisini keçirmək istəyirik. O vaxta qədər məsələ dəqiqləşəcək".

**AXP sədrinin təmsilçisi Qiyas Sadıqov da qeyd edib ki, sədr Pənah Hüseynin namizədliyini verəcəyi dairə Sabirabadı əhatə etsə də, konkretləşməyib:** "Dəqiqləşmə aparırıq. Sabirabadda üç dairə var, onlardan birindən veriləcək".

❑ **Röya RƏFİYEVA**

# Ölkə siyasətçilərinin sosial şəbəkədə aktivliyi azalıb

## Əksər paylaşımlar daha çox sosial səpkidədir, siyasət arxa plana keçib...

**Ölkə siyasətçilərinin sosial şəbəkədə aktivliyi azalıb. Son günlər tanınmış siyasətçilərin sosial şəbəkədə fəallığı hiss olunmur. Əksəriyyətin paylaşımları bir neçə gün əvvələ aiddir. Həmçinin əksər paylaşımlar daha çox sosial səpkidədir. Eyni zamanda bəziləri informasiya xarakterli məlumatlardır. Siyasi liderlərin bir neçəsinin diqqətçəkən paylaşımlarını təqdim edirik.**




**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbərin** facebook-da paylaşdığı sonuncu status 1 iyul tarixindədir və Bakıdakı tıxaclarla bağlıdır. İ.Qəmbər tıxacın əks olunduğu foto paylaşaraq yazıb: "Tıxac probleminin həlli nə sarı zolaqlarda, nə başqa qadağalarda, nə də hətta körpülərdə deyil. Bakıda tıxac probleminin köklü həlli ölkəmizin regionlarının gerçək inkişafındadır. Bu isə bütün digər problemlərin həlli kimi rejimin dəyişməsindən, xalqın hakimiyyətə gəlməsindən keçir".

**Müsavat Partiyasının başqanı Arif Hacılı isə sonuncu statusunu 29 iyunda paylaşıb və kredit borclarının ləğv ediləcəyi iddiaları ilə bağlı təklif verib:** "On min manatadək olan kredit borclarını ləğv edin. On min manatdan az olan kreditlərin ləğv olunacağı şayiəsi yayılıb. Nədən olmasın? İqtisadi qanunlara, makroiqtisadi inkişaf prinsiplərinə ziddir. Amma hansı sahədə bu qanunlara, prinsiplərə əməl olunur? Əndazəni aşan korrupsiya, bütün iqtisadi sahələrdə monopoliya, gömrükdə, vergi sistemində olan özbaşınalıq bu prinsiplərə uyğundurmu?

Rentabelsiz bir yarışa milyardlar qoyulursa, bir diskotekaya 140 milyon xərclənirsə, milyarder Ledi Qaqaya 4 dəqiqəlik bir nəğməyə görə milyonlar verilirsə, nədən bu əliaçıqlıq ölkə vətəndaşlarına da göstərilməsin? Aydın məsələdir ki, on min manatadək kredit borcu olanlar əsasən əhalinin imkansız təbəqəsi, yaşamaq uğrunda mübarizədə olanlardır.

Pul ki bu qədər çoxdur, belə ki, əliaçıq, səxavətlisiniz, bu insanların da ümidlərini qırmayın, vətəndaşların on min manatadək kredit borclarını ləğv edin!"

Ümid Partiyasının sədri İqbal Ağazadə isə iyulun 3-də Ümid Partiyasının mətbuat xidmətinin yayımladığı şəkli paylaşıb. Şəklin altında isə Azərbaycanda gender siyasəti və bu siyasətdə Ümid Partiyasının rolu barədə açıqlama var.

**KXCP sədri Mirmahmud Mirəlioğlu sosial şəbəkədə aktiv deyil. O, sonuncu paylaşımı 25 mayda edib və Türkiyə Millətçi Hərəkatının liderlərindən olan Muhsin Yazıçıoğlunun şəklini paylaşaraq yazıb:** "Bu gün Türkiyə Millətçi Hərəkatının önəmli liderlərindən biri sayılan Muhsin Yazıçıoğlunun vertolyot qəzasında öldüyü gündür (2009, 25 mart), daha doğrusu, öldürüldüyü. Azərbaycana və bütünlükdə Türk dünyasına bağlı siyasət adamı idi. Uzun müddət Ülkü Ocaqlarına rəhbərlik etmiş, Abdullah Çatlı ilə birlikdə mücadilə aparmışdılar. Azərbaycan milli hərəkatına, onun rəhbəri Əbülfəz Elçibəyə böyük sayğı və sevgisi var idi. Apardığı mücadiləni başa vura bilmədi, bu gün Türkiyənin başına açılacaq oyunların önündə duracaq biri idi və buna görə də Türkiyənin gələcəyinə zərbə vuranlar onu sıradan çıxardılar. Bu gün onun xatirəsi Azərbaycanda, Türkiyədə və bütünlükdə Türk dünyasında əziz tutulur, mücadilə yolu bir nümunə kimi qəbul olunur. İnanırıq ki, onun ideyaları qalib gələcək və bir gün həqiqətən onun ruhu şad olacaq. Böyük sayğılarla Muhsin Yazıçıoğlunu anırıq".

AXCP sədri Əli Kərimlinin sonuncu paylaşımı isə 5 iyuna aiddir. "Azərbaycan saatı"nda Avropa Oyunlarının bağlanışı ilə bağlı çıxışını paylaşıb. Milli Şuranın sədri Cəmil Həsənlinin son paylaşımı 6 iyunda olub və Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış separatçı rejimin başçısı Bako Saakyanın iki gün sonra, iyulun 8-də "Chatham House - Kral Beynəlxalq Münasibətlər İnstitutu"nda keçiriləcək tədbirdə çıxış etməsi ilə bağlıdır.

VHP sədri, deputat Sabir Rüstəmxanlı 30 iyunda sonuncu paylaşımını edib. VHP Gənclər Təşkilatına yeni sədr seçilməsi barədə xəbəri paylaşıb.

**BQP sədri Fazil Mustafa isə 4 iyunda maraqlı elan paylaşıb:** "ANONS. Şənbə günü, saat 20.00-da Şüvəlandakı "Dalğa Plaza" idman kompleksinde Rusiya nazirləri və deputatlarından ibarət komanda ilə Azərbaycanın eyni tərkibdə yığma komandası ilə futbol üzrə yoldaşlıq matçı keçiriləcək. Arzu edənlər gəlib tamaşa edə bilərlər. 17 nömrə ilə hücumda oynamağım nəzərdə tutulub. İnşallah, maraqlı oyun olar".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015







# Məmurlarımızla rus nazirlərin oyununda baş verənlərin ilginc təfərrüatları

## **Qüdrət Həsənquliyev:** "Niyə müstəqil Azərbaycanda, 2-3 minlik tamaşaçının əyləşdiyi stadionda elanlar ancaq rusca verilir?"

**İyulun 4-də Bakıdakı "Dalğa Plaza" arenasında azərbaycanlı məmurlar və deputatlardan ibarət komanda rusiyalı həmkarları ilə yoldaşlıq görüşü keçirib. Oyun Rusiya komandasının 6-2 hesabı ilə başa çatıb.**

Azərbaycan komandasında baş nazirin müavini Yaqub Eyyubov, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov, AFFA-nın baş katibi Elxan Məmmədov, milli komandanın keçmiş baş məşqçisi Şahin Diniyev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, təhsil naziri Mikayıl Cabbarov, iqtisadiyyat və sənaye naziri Şahin Mustafayev, Prezident Administrasiyasının şöbə müdiri Azər Əmiraslanov, millət vəkilləri Fazil Mustafa, Adil Əliyev və digər rəsmi şəxslər çıxış ediblər.

"Rusiyalı deputat və nazirlərdən ibarət yığma komandanın qalib gəlməsinin əsas səbəbi onların bu sahədə təcrübəli olmaları ilə bağlıdır". Bu sözləri modern.az-a açıqlamasında **millət vəkili Fazil Mustafa** azərbaycanlı deputat və nazirlərin rusiyalı həmkarlarına futbol matçında məğlub olmalarını şərh edərkən deyib. O qeyd edib ki, rusiyalı deputat və nazirlər bu tərkibdə 5 il hər həftə məşq edirlər:

"Onlar eyni zamanda bir sıra matçlara bu tərkibdə çıxırlar, yoldaşlıq oyunlarında bir yerdə oynayırlar. Və onlar kimin harada oynayacağını, kimdən top alacağını yaxşı bilirdi. Bizdə isə kimin harada oynayacağı praktikası yox idi".

**F.Mustafa məhz bu səbəbdən daha sistemsiz oynadıqlarını və rusiyalı həmkarları ilə mübarizədə daha zəif olduqlarını vurğulayıb:**

"Diqqət etsək, görərsiniz ki, orada 4 qolu Rusiya yığma komandasından Piryakov vurub. Oyun onun üzərində qurulmuşdu və onun formada olması bizim üçün problem yaradırdı. Mərkəz hücumçu olmasam da, orada oynamalı oldum. Mərkəz xətdə top qəbul edib, vurma imkanlarım fərqli idi və düşünürəm ki, məhz bu pozisiyada daha çox fayda verə bilərdim. Həm də bu heyətlə oynamağımız birinci dəfə idi. Ona görə də hər birimiz kimdən nə zaman top alacağımızı bilmirdik. Bunun üçün vərdiş olmalıdır".

**Deputat hesab edir ki, əgər bu heyət davamlı olaraq hər həftə futbol oynasa, yaxşı komanda formalaşdırmaq olar:**

"Toplardan birini Şahin Diniyev, digərini isə Milli Məclisdən İlkin Müşfiqov vurub. Hər halda, revanş söhbəti var ki, Rusiyada oyun təkrar olunsun".

"Rusiya rəsmiləri ilə keçirilən oyunun nəticələrindən razı deyiləm. Rusiya komandası həftədə bir neçə dəfə bir yerə toplaşıb məşq edir, futbol oynayırlar. Yəni onlar hazırlıqlı futbolçulardır. Bizim komandamız isə iki günün içində formalaşıb. Ona görə də nəticə gözlənilən idi". Bu fikirləri isə azvision.az-a açıqlamasında Rusiya rəsmiləri ilə keçirilən futbol oyununda Azərbaycan komandasında çıxış edən Milli Məclisin deputatı Adil Əliyev deyib. Deputatın sözlərinə görə, komandada ən yaxşı oyunu təhsil naziri Mikayıl Cabbarov nümayiş etdirib.

**"Dalğa" İdman Arenasında baş tutan oyunu seyr edənlər arasında olan deputat Qüdrət Həsənquliyev isə onu narahat edən məsələlərdən bəhs etdi:** "Yoldaşlıq görüşünün keçirilməsi çox normal bir şeydir. Əlbəttə, burada müəyyən siyasi məqamlar da var, xüsusilə Qərbin təzyiqlərinin artdığı bir dövrdə. Amma mənim ürəyimi ağrıdan bir məqam oldu. Bizim uduzmağımıza görə yox. Düzdür, uduzmaq hər zaman pisdir, amma bu, idmandır və orada peşəkar idmançılar oynamırdı. Ürəyimi ağrıdan bu idi ki, stadionda bütün elanlar ancaq rus dilində verilirdi. Biz müstəqil dövlətik. Bu, biabırçılıqdır, bunun başqa bir adı yoxdur. Bu işi təşkil edənlər bizim nazirlər, deputatlar idi. Belə məsələlərə xüsusilə həssas yanaşmalı və diqqətli olmalıdırlar. Bu təşkilatçılardan cavab istənilməlidir ki, niyə belə addım atırsınız? Axı biz müstəqil, suveren dövlətik". **Q.Həsənquliyev Rusiyanın dövlət himnindən sonra səslənən himnimizə münasibəti də qəbul etmədi:** "Elə bu yarışdan qabaq ABŞ-ın Dövlət Müstəqilliyi Günü ilə bağlı bayram tədbirində ilk olaraq bizim himnimiz oxundu, ardınca Amerikanın himni. Rusiya ilə futbol matçında isə himnimizə münasibət mənim ürəyimi ağrıtdı. Yaxud niyə müstəqil Azərbaycanda, stadionda oturan 2-3 minlik tamaşaçının əyləşdiyi stadionda elanlar ancaq rusca verilir, yaxud idmançıların adları rus dilində səslənir? Özü də yalnız rus dilində. Heç olmasa rus dilindən sonra sovet dövründə olduğu kimi, ikinci dil kimi Azərbaycanca tərcümə olunsaydı, dərd yarıydı. Mən auditoriyaya da fikir verdim, xeyli qıcıq doğurmuşdu ki, nə oldu, yenidən artıq sovetlər dönəminə qayıdırıq?"

Bununla belə, Q.Həsənquliyev hakimlərin tərəfkeşliyini də qəbul etmədi: "Qolun birini ofsayddan vurduq. Uduzanda da düzgün uduzmaq lazımdır. Məsələn, açıq-açığına top Adil Əliyevin əlinə dəydi, istiqamətini dəyişdi, hakim əhəmiyyət vermədi. Ofsayd oldu, yan xətt hakimi bayrağını qaldırmadı. Sanki Azərbaycana kömək etmək istəyirdilər. Bunlar o qədər eybəcər görsənirdi ki... Stadiondakı 30-40 nəfər rus azarkeşin səsi 3 min azərbaycanlının səsindən möhkəm çıxırdı. 3 min azərbaycanlıya da öz dilində heç nə elan etmədilər. Hər halda, biz dediyim bu məsələlərə görə çox pis görsəndik".

Qeyd edək ki, sənaye və energetika naziri Natiq Əliyev, SOCAR prezidenti Rövnəq Abdullayev sadəcə oyuna tamaşa edirmiş. Güman edək ki, "Dalğa" nın rəhbərliyi dilimizə saygısızlığın səbəbini izah edəcək.

❑ **E.PAŞASOY**

# Türkiyə turizminin rus "itkisi"

## Qonşu ölkənin istirahət mərkəzlərini bəzəyən turistlər niyə qeybə çəkilib?

**Türkiyə turizmi həm də rus turistlərin hesabına qızıl günlərini yaşayıb. Görənlər bilir: Antalya, Bodrum, Quşadası, Alanya... istirahət mərkəzləri Rusiyadan gələnlərin hesabına aşıb daşırdı. Amma bu ildən vəziyyət xeyli fərqlidir.**

"Sputnik"in xəbərinə görə, Türkiyəyə Rusiyadan gələn turistlərin sayında may ayından etibarən bir azalma müşahidə olunub. İlk rəqəm 28 faizdir. Rusiyadan gələn turistlərin sayı normaldan 200 min nəfər azdır. Gəlişlərdəki azalma səbəbi Rusiyada yaşanan maliyyə problemləridir. Rublun dəyərdən düşməsi ilə paralel ötən ilin noyabr ayından etibarən Türkiyəyə Rusiyadan gələn turistlərin sayında bir azalma müşahidə olunur. Rusların ən çox sevdiyi istirahət bölgəsi Antalya olsa da, artıq bura gələn turist sayı 40 faiz azalıb. Daha bir maraqlı fakt isə ondan ibarətdir ki, Türkiyə Rusiyadan Türkiyəyə turist daşıyan təyyarələr üçün turoperatorlara hər təyyarə üçün 6 min dollarlıq yanacaq dəstəyi verir.

Turizmin paytaxtı Antalya isə Rusiyadakı iqtisadi böhranın təsirlərini mövsümün açılması ilə daha çox hiss etməyə başlayıb. İlk 5 ayda 10 faiz olan geriləmə, iyundan etibarən özünü daha qabarıq göstərib. Artıq turistlərin sayında 15 faizlik bir azalma var.

Rusiya bazarında keçən illə müqayisədə 32.4 faizlik itki yaşanıb.

Türkiyə daxili statistikası isə göstərir ki, ilin 5 aylıq dönəmində xarici ziyarətçi sayı 2 milyon 494 minə qədər azalıb. Beləcə Antalya yeni ildən bu günə qədər 300 min xarici turist itirib.




Rus turist sayı isə 802 mindən 542 minə qədər geriləyib. Turizmçilər ötən illə müqayisədə bu il yüzdə 30, yəni 900 min - 1 milyona yaxın azalma təxmin etdiklərini bildirib. Bu isə təxminən 2 milyon dollar məbləğində gəlir itkisi deməkdir.

Rusiya Federal Turizm Agentliyinə görə, ötən ilin ilk dörd aylıq zaman kəsiyində 3 milyon 180 min ölkə xaricinə istirahətə getdiyi halda, bu ilin eyni dönəmində bu rəqəm 1 milyon 900 minə qədər geriləyib.

Rusiya Federal Turizm Agentliyinin rəhbəri Oleq Safanov deyib ki, Rusiyadan ölkə xaricinə gedən insanların sayında azalma bu il də özünü göstərməkdə davam edəcək. Rəqəmlərin minimuma qədər azalacağı gözlənilir.

Rusların maliyyə böhranı ucbatından xaricə səyahət etməməsi onların xarici pasport almamasında da özünü göstərir. Belə ki, ölkənin daxili işlər nazirliyindən verilən məlumata görə, ötən ilin hazırkı dönəmi ilə müqayisədə xarici pasport alanların ümumi sayında 44.5 faiz azalma müşahidə olunur.

2014-cü ildə Rusiyanın 4,38 milyon vətəndaşı Türkiyəni ziyarət edib. Bu ilin ilk rübündə isə Türkiyəyə turist kimi gədən Rusiya vətəndaşlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 26 faiz azalıb.

**Turizm mövsümünün başlanması ərəfəsində artıq rusiyalı turistlər "isti turları" öncədən sifariş etməyə başlayıblar. Bu barədə Bodrumda ənənəvi turizm mövsümünün açılışında Türkiyə Səyahət Agentlikləri Birliyinin(TURSAB) rəhbəri Başaran Ulusoy bildirib:** "Böhranın törətdiyi fəsadlar getdikcə aradan qalxmaqdadır. Hazırda öncədən səyahət paketlərini sifariş edənlər ən çox Rusiyadan olan turistlərdir. Ümidvarıq ki, turist sayı ötənilki göstəricilərə çatacaq."

Qeyd edək ki, bu ilin fevral ayında Türkiyənin baş naziri Əhməd Davudoğlu hökumətin böhrandan əziyyət çəkən turizm biznesində fəaliyyət göstərən, Rusiya və digər dövlətlərin aviadaşıyıcılarına kredit və dotasiya ayırmaq niyyətində olduğunu bildirmişdi.

2015-ci ilin fevral ayında Türkiyəyə gələn əcnəbilərin sayı 1 milyon 383 min olub. Gələn əcnəbilərin sayı keçən ilin eyni ayına görə yüzdə 2.30 artıb. Mədəniyyət və Turizm Nazirliyinin məlumatlarına görə, gələn əcnəbi sayı yanvar-fevral dövründə keçən ilə nisbətlə yüzdə 5.41 artaraq 2 milyon 634 minə çatıb. Gələn xaricilərin milliyyətinə baxıldıqda almanlar ilk sıranı alıb. Fevralda 152 min 911 alman Türkiyəni ziyarət edib. Almanları 106 min 916 turistlə İran və 106 min 413 nəfərlə Gürcüstandan gələn ziyarətçilər təqib edir. "Habertürk"ün xəbərinə görə, fevral ayında, yanvarda olduğu kimi, rus turistlərin sayındakı sürətli eniş diqqət çəkib. Rusiya iqtisadiyyatındakı dalğalanmalar, xüsusilə də rublun dəyər itirməsi səbəbindən fevral ayında Türkiyəyə gələn rus turistlərin sayında keçən ilin eyni ayına görə yüzdə 31.6 faizlik eniş olub.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015

# "Azadlıq-2015" seçki bloku aksiyalara hazırlaşır

## Qurumun əksər dairələrdə namizədləri müəyyənləşib; yaxın günlərdə iqtidar-müxalifət dialoqu gözlənilmir

**Bu il noyabrın 1-də keçiriləcək parlament seçkiləri yaxınlaşdıqca, cəmiyyətdə fəallıq artır. Artıq partiyalar namizədlərini müəyyən etməyə başlayıblar. Birlik, blokların yaradılmasına start verilib.**

Hazırda seçki ilə bağlı ən fəal qurumlardan biri "Azadlıq-2015" seçki blokudur.

Bloka daxil olan partiyalardan KXCP sədri Mirmahmud Mirəlioğlu ilə iqtidar-müxalifət dialoqu, Avropa Oyunlarından sonrakı mühit və qarşıdan gələn seçkilərlə bağlı söhbət etdik.

**KXCP sədri yaxın günlərdə iqtidar-müxalifət dialoqunun keçirilib-keçirilməyəcəyi ilə bağlı məlumatsız olduğunu söylədi:** "Bir həftə idi ki, Bakıda deyildim. Ona görə dəqiq bilmirəm. Eşitdiyimə görə də yoxdur. Seçkilərə qədər ola bilsin ki, bir neçə dəfə bu mümkün olsun. Əgər istək olacaqsa. Olmayacaqsa, indidən demək olmaz. Amma, məncə, mütləq olar".

**Partiya sədri dialoq olarsa, müzakirə olunacaq məsələlərdən danışdı:** "Tərəfimizdən olan məsələlər aktual şəkildə xronoloji ardıcıllıqla deyilib. Yəqin ki, bu cür də bir daha deyiləcək. Gündəliyə hansı məsələlər salınacaqsa, ümumi müzakirələrin nəticəsində olacaq. Böyük ehtimalla seçkilər məsələsi birincilər sırasında olacaq. Seçkinin keçirilməsi, demokratik seçki sisteminin yaradılması, seçki məcəlləsinin təkminləşdirilməsi, komissiyalar, əlavə və düzəlişlər məsələsi müzakirə mövzuları olacaq. Onlar elə olmalıdır ki, reallaşması mümkün olsun. Çünki hazırda Milli Məclis tətildədir. Amma əsas məsələlər istəkdən asılıdır. Bu istək qarşılıqlı olacaqsa, istənilən məsələni növbədən kənar da etmək mümkündür. Parlamentin üzvlərini çağıra bilərlər. O cümlədən, müzakirələrdə də parlament üzvləri iştirak edə bilərlər. Yəqin ki, problem olmaz. Təki istək olsun".



M.Mirəlioğlu Avropa Oyunlarının seçkilərə olan təsirləri məsələsinə də toxundu: "Bu məsələlər bizim proqnozlardan daha çox hakimiyyətin məsələyə yanaşmasından asılıdır. İllərlə bu və ya digər dərəcədə illüziyalar olub. ATƏT-in Bakı missiyası burada fəaliyyət göstərərkən gördüyü müəyyən işlər olub. Seçkilər ərəfəsində müxtəlif illərdə bir çox təkliflər olub. Amma bunların hamısı yalnız məsələ, müzakirələr olub. Nəticələri isə həmin dağlarda qalıb. Ona görə də indidən nəsə proqnozlaşdırmaq çətindir. Xüsusilə bu oyunlardan sonra daha çətindir. Çünki Azərbaycan hakimiyyəti hələ ki seçki əhval-ruhiyyəsinə, seçki reysinə düşməyini göstərmir. Bu istiqamətdə addımlar yoxdur. Ola bilsin ki, var, amma xəbərim yoxdur".

### Mirmahmud Mirəlioğlu: "Kütləvi aksiya keçirməyi nəzərdə tutmuşuq"

**KXCP sədri təmsil olunduğu "Azadlıq-2015" seçki blokunun da hazırlıqlarından söz açdı:** "Bu istiqamətdə gördüyümüz işlər var. Özümüz üçün gördüyümüz, müəyyən etdiyimiz işlər var. Qanunvericiliyə uyğun olaraq, uyğun addımlar atmışıq. Namizədlərimizin müəyyən edilməsi istiqamətində işlər gedir. Başqa təkliflərimiz var. Bunlar ictimai müzakirəyə təqdim olunacaq. Xeyli qənaət, layihələrimiz var. Hazırda 50%-dən çox dairədə namizədlərimizi müəyyənləşdirmişik".

**M.Mirəlioğlu bloka başqa qurumların qoşula biləcəyini mümkün hesab edir:** "Ola bilsin ki, bundan sonra bloka bəzi qurumlar da qoşulsun. Bu istiqamətdə hələ ki bir iş yoxdur. Bəlkə digər üzvlərimizə müraciətlər var, mən xəbərsizəm. Bir həftəyə yaxın idi ki, Bakıda deyildim. Hamımızın namizədləri olacaq. Ola bilsin ki, namizədlərin sayına görə partiyalar fərqlənsin. KXCP-nin iddiaçıları digərlərindən az və ya çox ola bilər. Əsas məsələ blokun namizədləridir. Hamımız bu blokda birlikdə iştirakı nəzərdə tutmuşuq. KXCP bu seçkilərə tək getmiş görkəmi bağışlamır".

**Qeyd edək ki, KXCP-nin bəzi üzvləri fərdi qaydada Milli Şuranın üzvü sayılır. Qarşıdan gələn seçkilərdə KXCP namizədlərinin hansı birliyin iddiaçıları olub-olmayacaqları sualları yaradır. Mirmahmud bəy bu suallara da aydınlıq gətirdi:** "Burada məsələ belədir. Milli Şura seçkilərdə iştirak edəcək ya yox, bu, onların daxili işləridir. Bizim hər birimiz Milli Şuranın fərdi üzvləri olmuşuq. Orada həm də partiya mənsubiyyətləri var idi. KXCP-nin Milli Şuraya daxil olmaq barədə qərarı yoxdur ki, oradan çıxmaq haqqında da qərarı olsun".

**KXCP sədri qarşıdakı ayda blokun kütləvi aksiya keçirəcəyini qeyd etdi:** "Gələn aya bir kütləvi aksiya keçirməyi nəzərdə tutmuşuq. Ona hazırlaşırıq. Gələn ayın 1-də KXCP-nin qurultayıdır. Bundan qabaq AXP-nin qurultayı olacaq. Bu ayın 25-də. Qurultaylarımızdan sonra aksiyalara daha ciddi hazırlaşacağıq".

❑ Cavanşir ABBASLI

# Həbsdəki hakimdən prezidentə şok müraciət

## ""Həmin məmurun qorxusundan nə prokurorluq, nə də məhkəmə orqanları obyektiv araşdırma aparmır"

**Bakı Ağır Cinayətlər Məhkəməsinin sabiq hakimi, hazırda həbsdə olan Həsən Əliyev ölkə başçısı İlham Əliyevə açıq məktub ünvanlayıb. Məktubda sabiq hakim çox yüksək vəzifəli bir məmurun göstərişi ilə haqsız olaraq həbs olunduğunu yazıb:**

"Həmin məmurun yaxın qohumu olan Nərimanov rayonunun sabiq prokuroru Fikrət Mahmudov və onun sabiq müavini Cavid Əliyevin cinayət əməlləri barədə Milli Təhlükəsizlik Nazirliyinə ərizə ilə müraciət edib bildirdikdən sonra bu hərəkətim yüksək çinli məmurun xoşuna gəlmədiyindən məni cəzalandırmaq üçün göstəriş vermiş, məhkəmədə fəaliyyətimi yoxlatdırmış, heç bir səbəb olmadan hakimlik fəaliyyətimə vaxtından əvvəl xitam vermək haqqında sərəncam imzalatdıraraq, 11.02.2014- cü il tarixdə, siz xarici səfərdə olduğunuz zaman elektron imza vasitəsilə rəsmiləşdirmiş, qondarma ssenari qurduraraq verdiyim şikayət ərizəsini və onunla bağlı toplanmış materialı Milli Təhlükəsizlik Nazirliyindən aldıraraq, araşdırılmasını Baş Prokurorluqda apartdırmaqla, mənə əsası şər və böhtanlarla qurulmuş ittiham verdirmişdir".

**Sabiq hakim daha sonra yazır ki, saxta diplomlar əldə etməklə dövlət strukturlarında qulluğa düzəlmiş və bu faktın üstü açıldıqdan sonra 1998-2000-ci illərdə vəzifədən qovulmuş Ramazan Səlimovu üzünə qoydurmaqla, ona şər və böhtan atılıb, əsassız olaraq dələduzluqda günahlandırılıb:**

"Guya mən həmin yalançı biznesmeni, "görkəmli iş adamını" icra başçısı təyin etdirmək adı ilə aldadaraq, külli miqdarda pulunu əlindən almaqla, ona qarşı dələduzluq etmişəm. Aparılan istintaq zamanı həmin şəxsin icra başçısı vəzifəsinə təyin olunmağa layiq olmadığını, əvvəllər məhkum olunduğunu, saxta diplomlara malik olduğunu, Bakı şəhərinin Əzizbəyov, Xətai, Yasamal rayon polis idarələrində onun barəsində ifşaedici materialların olduğunu, onun külli miqdarda pulunun olmadığını və təbii ki, belə halda mənə heç bir pul verməyini, imkansız bir şəxs olmaqla kirayələrdə yaşadığını, daimi yaşayış yeri olmadığından polisin inzibati binasına qeydiyyata salındığını, özünün təsadüfi gəlirlər hesabına, həyat yoldaşının, qızının isə daimi kreditlər almaqla dolandıqlarını, yəni ittihamda göstərilən pul mənbəyinə malik olmadığını, ittihamın qondarma olduğunu təsdiq edən hüquqi sənədləri, sübutları və faktları məhkəməyə təqdim etsəm də, məhkəmə omları nəzərə almayaraq mənə ittiham verilmə göstərişinin yüksək çinli məmurdan gəldiyini bildirməklə, mənə qondarma, heç nə ilə təsdiq olunmayan, sübuta və fakta söykənməyən, mənbəyi və təsdiqi olmayan hökm çıxarmışdır".



Ramazan Səlimov



Həsən Əliyev

**Məktubda daha sonra yazılır:** "Həmin məmurun qorxusundan nə prokurorluq, nə də məhkəmə orqanları obyektiv araşdırma aparmır, faktsız və sübutsuz, 1937-ci illəri xatırladan ədalətsiz və qanunsuz qərarlar çıxarır. Respublikanın baş prokuroru, Ali Məhkəmənin sədri bütün bu qanunsuzluqlara göz yumur, yüksək vəzifəli məmura itaət edir, ona yararlanmaq mövqeyindən çıxış edir, onun qanunsuz və ədalətsiz göstərişlərini yerinə yetirməklə, məmuru razı salan addımlar atırlar. Onları insan hüquqları yox, respublikada söz sahibi olan, çətin məqamlarda onların köməyinə çatan özlərinə "ağsaqqal" qəbul etdikləri məmurun onlardan razı qalması maraqlandırır. Cənab prezident! Məni qanunsuz olaraq həbs ediblər, ailəmi, övladlarımı əsassız təqib edirlər. Onların barəsində Nəsimi Rayon Məhkəməsi tərəfindən əsası olmayan müxtəlif xarakterli ədalətsiz qərarlar qəbul edirib, icra etdirirlər. Bütün bunların məmur göstərişinə əsasən edildiyini bildirməkdən çəkinmirlər".

**Sabiq hakim sonda prezidentdən barəsində olan cinayət təqibinin xitam olunmasına və qanunsuz həbsdən azad olunmasına köməklik istəyir:** "Məni məmur haqsızlığından və məmur özbaşınalığından xilas edəsiniz. Yüksək cinli məmurun kimliyini sizin nəzarətiniz altında müraciətimi araşdıran şəxsə söyləməyə hazıram".

Qeyd edək ki, Gəncə Ağır Cinayətlər Məhkəməsində dələduzluqda ittiham olunan sabiq hakim Həsən Əliyevin, habelə Elman Məmmədov və Taleh Süleymanovun 6 aydan bəri davam edən cinayət işi üzrə məhkəmə bu ilin 1 aprelində yekunlaşıb.

Hökmə görə, Elman Məmmədov 8 il, Taleh Süleymanov isə 7 il müddətinə azadlıqdan məhrum ediliblər. Sabiq hakim Həsən Əliyev barəsində isə 7 il müddətinə həbs cəzası təyin edilib. O, məhkəmə zalındaca həbs olunub.

2007-2014-cü illərdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim işləyən Həsən Əliyevin səlahiyyətlərinə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə ötən ilin fevral ayında xitam verilib.

Təxminən 5 ay sonra isə uzun illər prokurorluq və məhkəmə orqanlarında çalışan H.Əliyevə qarşı Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) və 312.2-ci (rüşvət vermə) maddələri ilə ittiham irəli sürülüb və barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.

Buna səbəb Ramazan Səlimov adlı şəxsin iddiası olub. R.Səlimov iddia edib ki, sabiq hakim ondan vəzifəyə düzəltmək vədi ilə 600 min manat pul alaraq qaytarmayıb.

Sabiq hakim isə ona elan olunmuş ittihamlarla nə istintaq zamanı, nə də məhkəmə prosesində razılaşmayıb, bütün bu olayların ona qarşı qurulmuş bir oyun olduğunu deyib.

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015

# Ukrayna kreditlərlə bağlı qərar verdi - Azərbaycandan fərqli...

## Yerli ekspertlərə görə, Azərbaycan hökuməti də bu addımı ata bilərdi, ancaq...

**Ukrayna Ali Radası xarici valyuta ilə götürülən kreditlərlə bağlı qanun layihəsi qəbul edib. Qanun layihəsi istehlak kreditləri götürən fiziki şəxslərin üzləşdiyi problemlərin həlli mexanizmini nəzərdə tutur. Qanunvericilər belə nəticəyə gəliblər ki, milli valyutanın stabilliyini qoruyub saxlaya bilməməsinə görə məsuliyyət dövlətin üzərindədir.**



Ona görə də dövlət bu məsuliyyəti nəzərə alaraq, əhaliyə yardım etməlidir. Ukraynada vaxtilə dollar və digər xarici valyuta ilə kredit götürmüş vətəndaşlar banka ödənişi həmin valyutanın devalvasiyadan sonrakı məzənnəsinə yox, kredit götürüldüyü vaxtdakı məzənnəyə uyğun ödəyəcəklər.

Əksər yerli ekspertlər isə bildirirlər ki, Azərbaycan hökuməti də bu addımı ata bilərdi. Amma hökumət əhalinin mənafeyini güdməyə ehtiyac duymayıb. **Ekspert Natiq Cəfərlinin** sözlərinə görə, Azərbaycanda bunun olacağı mümkün görünmür: "Bir şərtlə mümkün olardı ki, bankların ziyanını dövlət ödəsin. İndiki durumda inanmıram ki, hökumət büdcəyə əlavə yük götürsün. Ancaq ölkədə problemli kreditlərin həcmi aybaay artır. Bunun fonunda hökuməti kreditlərlə bağlı müəyyən addımlar atmağa məcbur olacaq. Çünki problemli kreditlərin həcmi durmadan artır. Yanvar ayının 1-nə olan məlumat 1 milyarda çatmırdısa, indi məbləğ 1,3 milyardı keçib. Bunun da böyük əksəriyyəti devalvasiyadan sonra dolların məzənnəsinin 34-35 faiz artmasından sonra yaranıb. Dollarla kreditlərin geri qaytarılması problem yaradıb. Əhalinin gəlirləri artmayıb, əksinə, azalıb. Ona görə də problemli kreditlərin həcmi də getdikcə artacaq. İlin sonuna qədər iki milyard manata çatması gözlənilir. Çox güman ki, belə də olacaq".

**Ekspert bildirib ki, bundan sonra artıq bank sektorunda ciddi problemlər və təlatümlər yaşanacaq:** "Çünki bankların böyük əksəriyyətinin onsuz da vəziyyəti o qədər də yaxşı deyil. Hətta nüfuzlu reytinq agentlikləri Azərbaycan banklarının vəziyyətinin çox ağır olduğu haqqında bu yaxınlarda hesabatlar yayıblar. Yəni onsuz da banklarda vəziyyət çətindir və problemli kreditlərin artması bankların bir hissəsinin çökməsinə və yaxud da müflis olmasına səbəb ola bilər. Onda hökumət məcburən olaylara müdaxilə etməyə məcbur olacaq. Bu da daha ağır olacaq və dövlət büdcəsinə daha baha başa gələcək. Ona görə də düşünürəm ki, hökumət nə qədər bu problemi görməzdən gəlsə də, nə qədər topu Konstitusiya Məhkəməsinin üzərinə atıb verdiyi qərarla bankları yönləndirməyə çalışsa da, vəziyyət ciddidir. Hamımız bilirik ki, Konstitusiya Məhkəməsi hökumətlə təmas şəklində bu qərarı verib. Yəni burada tək hüquqi məsələdən söhbət getmir. Ona görə də hökumət nə qədər bu problemləri ertələməyə çalışsa da, düşünürəm ki, ilin sonuna yaxın artıq məcburən bəzi addımlar atmağa gedəcək. Çünki problemli kreditlərin həcminin artması bütün bank sisteminə ciddi təhlükə törədir. Ümumiyyətlə, makroiqtisadi göstəricilərə ciddi təsir göstərir. Hökumət bütün bunları anlasa, yaxşı olardı və düşünüb bir proqram şəklində bu məsələyə yanaşsın. Həm kredit verən bankların mənafeyini, həm vətəndaşların mənafeyini uzlaşdıra biləcək bir qərar versin. Belə olsa, bank sistemində gələcəkdə yaşanacaq ciddi təlatümlərin qarşısını almaq mümkün olacaq. Yəni problemləri görməzdən gəlmək davam etsə, vəziyyət pisləşəcək. Bu proses davamlı şəkildə gedir. Onda ilin sonunda bank sektorunda ciddi problemlərin yaşanmasının şahidi olacağıq".

❑ RÖYA

# Nazirlik daha 7 rayonda müəllimləri imtahan edəcək

## Onların da maaşı artacaq

**Bakı şəhərindən sonra Azərbaycanın daha 7 rayon və şəhərində müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparıla bilər". Bu sözləri modern.az saytına açıqlamasında Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini İlham Nağıyev deyib. O qeyd edib ki, həmin şəhər və rayonlarla bağlı hökumətə müraciət olunub və müsbət cavab alınsa, yay ayı ərzində orada dərhal müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılacaq.**

"Keçən il Bakı şəhərində diqnostik qiymətləndirilmə keçirilən müəllimlərin əmək haqlarında kifayət qədər artım oldu. Artıq regionlarda da diaqnostik qiymətləndirilmənin keçirilməsi ilə bağlı iş aparılır və bununla bağlı hökumətə müraciət olunub. Müsbət cavab verilən kimi həmin rayonlarda diaqnostik qiymətləndirilmənin aparılması istiqamətində işlərə başlanılacaq. Ümumiyyətlə, bütün respublika müəllimlərinin diaqnostik qiymətləndirilməsi aparılacaq, sadəcə, bu, bir gündə deyil, mərhələli şəkildə həyata keçiriləcək. Həmin rayonların adları bəllidir, amma qərarın verilməsini gözləyirik. Ondan sonra hansı rayon və şəhərlərdə keçiriləcəyini demək mümkün ola bilər".

İ.Nağıyev diaqnostik qiymətləndirmədən keçən müəllimlərin əmək haqlarının necə artırılacağını da açıqlayıb.

"Burada müəllimin dərs yükü və stajı böyük rol oynayır. Məsələn, Bakı şəhərində 18 ildən artıq stajı olanlarda ən çox əmək haqqı artımı müşahidə edilib. Amma ali məktəbləri yeni bitirib işə başlayanların maaşında 15-20 faiz artım olacaq. Yəni əmək haqqının artımı staj, dərs yükündən asılı olaraq dəyişir. Fərmanda da qeyd edilib ki, dərs yükü 1,5 dəfə və ona müvafiq olaraq əmək haqqı da 2 dəfə artırılacaq. Dərs yükü 12 saatdan 18 saata qaldırıldı. Əmək haqqı isə 155 manat idi, 320 manat oldu. Orada konkret şəxsin əmək haqqısının iki dəfə artırılması yox, dərs yükü norması və ona müvafiq olaraq əmək haqqının qaldırılması qeyd edilib".

# Ev fırıldaqçılarının məhkəməsi başladı




**Bakı Ağır Cinayətlər Məhkəməsində "Sevil Massivi" MTK ilə bağlı məhkəmənin hazırlıq iclası keçirilib. İyulun 7-də hakim Əfqan Hacıyevin sədrliyi ilə baş tutan iclasda məhkəmə qarşısına MTK-nın təsisçisi Aynur Zeynalov və digərləri çıxarılıblar. Təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib, məhkəmə prosesi iyulun 16-na təyin olunub.**

Yada salaq ki, ötən il iyulun 25-də Baş Prokurorluğun mətbuat xidməti "Sevil Massivi" MTK ilə bağlı rəsmi məlumat yaymışdı. Həmin məlumatda bildirilirdi ki, "Sevil Massivi" MTK-da külli miqdarda vergilərin dövlət büdcəsinə ödənilməsindən yayındırılması faktına əsasən Vergilər Nazirliyində başlanmış cinayət işi üzrə istintaq aidiyyəti üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində davam etdirilir. Aparılmış istintaq zamanı kooperativin təsisçisi Aynur Zeynalovun həmin kooperativin direktoru Elçin İsmayılov və digərləri ilə qabaqcadan əlbir olub 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayınmalarında, habelə xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq alınmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 99 min 597 manat məbləğində gəlir əldə etmələrində şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən onlara Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Qeyd edilənlərlə yanaşı Abşeron rayonu, Hökməli bələdiyyəsinin sədri Mirnamat Miradiyevin bələdiyyə ərazisində yerləşən torpaq sahələrini A.Zeynalov və E.İsmayılovun bilavasitə şərait yaratmaları ilə müxtəlif şəxslərə sataraq ümumilikdə sonunculardan 170 min manat məbləğində rüşvət almasında şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən ona Cinayət Məcəlləsinin 311.3.3-cü (rüşvət alma) maddəsi ilə ittiham elan edilməklə ağır xəstəliyi ilə əlaqədar barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib. İstintaqla həmçinin müəyyən edilib ki, "Sevil Massivi" MTK-nın məsul şəxsləri Hökməli bələdiyyəsinin sədri M.Miradiyevlə əldə etdikləri şifahi razılaşmaya əsasən bələdiyyənin mülkiyyətində olan 30 hektar perspektiv inkişaf torpaqlarını, eləcə də ayrı-ayrı şəxslərin mülkiyyətində olan "At yalı" və "Sonalı sahəsi" adlandırılan 110 hektar örüş torpaqlarını qanunsuz olaraq zəbt edərək həmin torpaqların vətəndaşlara faizsiz kreditlə satışını həyata keçiriblər. Vətəndaşlar tərəfindən isə həmin torpaq sahələrində layihə-smeta sənədləri olmadan, dövlət qeydiyyatına alınmadan 200 fərdi yaşayış evinin tikintisi həyata keçirilib. Kredit ödənişləri başa çatdıqdan sonra bələdiyyəyə məxsus olmayan sahələr bələdiyyə tərəfindən hərraca çıxarılmaqla satılaraq vətəndaşların adlarına rəsmiləşdirilib. Bundan başqa, "Sevil Massivi" MTK tərəfindən qeyd olunan ərazinin təyinatına uyğun olmadan orada 100-dən artıq çoxmənzilli yaşayış binalarının tikintisi nəzərdə tutulub, həmçinin müvafiq dövlət qurumları ilə razılaşdırılmadan, o cümlədən qanunsuz olaraq aparılan tikinti işlərinin dayandırılması barədə Fövqəladə Hallar Nazirliyinin rəsmi xəbərdarlıqlarına məhəl qoymayaraq, binaların 14-nün özülü qazılmaqla, onlardan 4-də ilkin tikinti işləri həyata keçirilib. Bununla belə, təyinatına görə örüş torpaqları olan həmin sahələrdə qanunsuz tikiləcək çoxmənzilli yaşayış binalarından vətəndaşlara mənzillər satılıb.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 147 (6175) 8 iyul 2015

# Qazlı içkilər insanı öldürmür, amma...

## Bu cür sulardan həddən artıq istifadə etmək məqsədəuyğun deyil

**Havalar isti olduğu üçün insanların sərinləşdirici sulara olan tələbatı da artıb. Paytaxtda hər addım başı müxtəlif çeşiddə sərinləşdirici sular satılan yerlərlə rastlaşırıq. İri marketlərdə sərinləşdirici suların çeşid bolluğunu daha çox müşahidə etdik. Əhali xüsusən də qazlı sərinləşdirici sulara üstünlük verir. Satıcılarda alıcıların daha çox şirin qazlı sərinləşdirici sular və energetik içkilər aldığını deyirdilər. Suların müxtəlif çeşiddə olması istehlakçılara rahat seçim imkanı verir. Qiymətləri isə sərinləşdirici rəngli qazlı sular 30 qəpikdən 5 manat arasında satılırdı. Energetik içkilər isə 1-4 manat arasında satılırdı.**







Maraqlıdır, bəs içdiyimiz sərinləşdirici qazlı sular səhhətimizə nə dərəcədə zərərlidir?

"Circulation" jurnalında dərc olunan məqalədə şirin qazlı içkilərdən çox istifadənin dünyada hər il təqribən 184 min insanın ölümünə səbəb olduğu yazılıb. Həmçinin əlavə çəki ilə yanaşı, sağlamlıqla bağlı bir çox problemlərin yaranmasına da gətirib çıxarır. Qazlı içkilərdən istifadə tezliyini bu insanların ölümü ilə qarşı-qarşıya qoyan alimlər qrupu aşkar edib ki, bu içkilərdən çox istifadə etmə birbaşa və dolayı yolla hər il təqribən 180 min insanın ölümünə səbəb olur. Ölüm hallarının əksər hissəsi II tip şəkərli diabetin, 45 mini ürək və damar xəstəliklərinin, 6,5 mini isə xərçəng xəstəliyinin payına düşür. Gün ərzində cəmi 2 şüşə şəkərli qazlı içki içmək insanların şirin dadları bilmə hissini kütləşdirir və onları şəkərə daha da meyllləndirir. Qazlı içkilərin əsas zərərləri ürək xəstəlikləri, qaraciyər çatışmazlığı, hipertansiyon, maddələr mübadiləsinin pozulması ikən eyni zamanda hər orqana fərqli şəkildə zərər verir. Bu içkilər asılılıq yaradır və bir çox orqanlara qalıcı ziyan verir. Harvard Universitetinin araşdırmalarına görə, qazlı içkilərin içində olan fosfat erkən yaşlanmaya səbəb olur, infakt riskini artırır. Bədəndəki kalsium tarazlığını pozub sümük əriməsinə gətirib çıxardır, diş minasına zərər verir. Həmçinin qazlı içkilərin siqaret qədər zərər verdiyi də deyilir. Əksər sərinləşdirici suların dibində çöküntü olur. Hazırda satışda isti günəş altında, mənşəyi məlum olmayan, üzərində istehsal və son yararlılıq tarixi yazılmayan içkilərin satışı kifayət qədərdir. Qeyd edək ki, mineral su 5-12 dərəcə temperaturda saxlanılmalıdır. Təbii mineral suların saxlanılma müddəti 1 ildir. Tərkibində dəmir olan suları isə 4 ay saxlamaq olar. Süni mineral suların ticarət şəbəkəsində saxlanılma müddəti 15 gündür. Keyfiyyətli spirtsiz içkilər şəffaf, çöküntüsüz olmalıdır. Spirtsiz içkilər 0-12 dərəcə temperaturda saxlanılmalıdır. Odur ki, sərinləşdirici içkilər alan zaman bu kimi amilləri nəzərə almaq lazımdır. Maraqlıdır, bu qaydalara əməl olunurmu?

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov qazlı suların içmək üçün yararlı olmayan sular olduğunu dedi: "Qazlı şirin sular içmək üçün məsləhətli olmayan sulardır və məsləhət görərdim ki, əhali bunu bilsin. Rəngli və rəngsiz fərqi olmadan qazlı sular ciddi mədə-bağırsaq xəstəliklərinə səbəb olur. Bu sulara kimyəvi rəngləyicilər, şəkər əvəzinə saxarin və digər mənşəyi bilinməyən maddələr vurulur ki, şirinlik versin. Şirinləşdirilmiş, rəngləşdirilmiş, üstəlik də qaz vurulmuş sular arzu olunmayan sulardı. Əhali belə sulardan uzaq durmalıdır. Bu içkilərdə standartların tələbləri pozulur. Bu suları cəlbedici etmək üçün qatqılar artıq vurulur. Buna da dövlət orqanları nəzarət edə bilmir. Ona görə də almaq məsləhət deyil. Əlbəttə, öldürücü deyil, az miqdarda içmək olar. Lakin təəssüflər olsun əhali, xüsusən də uşaqlar çox içir. Bu da zərərlidir".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla isə müəyyən içkilərin daimi istifadə üçün olmadığını dedi:** "Qazlı suların tərkibinə karbon qazı vurulur. Karbon qazının vurulması da suya həm sərinləşdirici effekt verməyi, həm də dizenfeksiya məqsədilə xarab olmaması üçün vurulur. Qazlı sulardan həddən artıq istifadə etmək məqsədəuyğun deyil. Amma qazlı suların insan ölümünə səbəb olması ilə bağlı məsələlər reallığa uyğun deyil. Bu gün Azərbaycanda ölüm hallarının məhz qazlı sudan baş verməsini kim tədqiq edib?! Heç kim. Ona görə də bu statistika reallığa uyğun deyil. Əvvəla, qazlı sulardan insanlar daima istifadə etmir. Müəyyən içkilər var ki, onlar daimi istifadə üçün deyil. Qazlı suların tonoslandırıcı içkilərin uzunmüddətli istifadəsi zərərlidir. Onların uzun müddətli istifadəsi təbii ki, müəyyən problemlər törədə bilər".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (050) 210-50-74**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**
**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)**

**Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.**
**Əlaqə nömrəsi:**
**(055) 206-14-61,**
**(070) 335-90-15,**
**(050) 371-01-60**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# Bakıda bahalı maşınları kim və niyə yandırır...

**Son bir neçə ayda paytaxt Bakıda bahalı avtomobillərin yandırılması tendensiya halını alıb. Son bir neçə gün ərzində Suraxanı rayonu, Qaraçuxur qəsəbəsində 4 avtomobil naməlum səbəblərdən yandırılıb.**

## Dəyanət Rzayev: "Əgər cəza almaq qorxusu olmasaydı, bahalı avtomobillərin 90 faizi yandırılardı"



Ötən ay da Suraxanı rayonu ərazisində bir gecədə 10-dan çox avtomobil od vuruları məhv edilib. Hadisəni törədən isə kriminal aləmdə "Dəli Səfər" adı ilə məşhur olan Səfər Mahmudov olmuşdu. Hüquq-mühafizə orqanı əməkdaşlarının "Avtomobilləri niyə yandırırdın" sualına o, ilginc cavab verib: "Yaxşı geyimli, bahalı avtomobil sahiblərini gördükdə kin və paxıllıq hissi keçirirdim. Ona görə də onlara pislik etmək istədim və gecə heç kim görmədiyi zaman avtomobilləri yandırdım".

Qeyd edək ki, yandırılan bütün avtomobillər çox bahalıdır. Buradan nəticəyə gəlmək olar ki, cəmiyyətimizdə yaşayış tərzi yaxşı olan, varlı insanlara qarşı böyük qısqanclıq hissi yaşayanlar var.

**Məsələ ilə əlaqədar "Yeni Müsavat"a danışan psixoloq Dəyanət Rzayev bu cür hadisələrin qısqanclıqdan deyil, daha çox sosial ədalətsizlikdən yarandığını deyib:** "Son vaxtlar bahalı avtomobillərin yandırılması bir növ induksiya xarakteri daşıyır. Yəni biri bu cür hadisə törətdikdən sonra digərləri onu təqlid etməyə başlayır. Deməzdim bu məsələdə daxili qısqanclıq var, məsələni başqa cür qoymaq lazımdır. Buna təkan verən daha çox sosial ədalətsizlikdir. Bəziləri fikirləşir ki, mənim evim olmadığı halda niyə başqasının xeyli sayda evi və ya avtomobili var və s. Bu cür amillər çox zaman insanların qəlbində qısqanclıq, paxıllıq hissi yaradır. Əgər insanlar cəza almaqdan qorxmasaydılar, inanıram ki, Bakıda olan bahalı avtomobillərin 90 faizi yandırılardı".

**Psixoloq vəziyyətdən çıxış yolu barədə də danışıb:** "Əslində nigarançılığa ehtiyac yoxdur. Bu bir dalğadır. Tutaq ki, əvvəllər insanlar "Koroğlu" metrosunun yanında yerləşən körpüyə çıxıb intihara cəhd edirdilərsə və yaxud ötən günlərdə İŞİD-in törətdiklərinə baxıb ailə üzvlərinə, yaxınlarına xəsarətlər yetirməyə, daha çox da onların boğaz nahiyələrini kəsməyə maraq göstərirdilərsə, yaxud da özlərini yandırırdılarsa, bu gün bu proses avtomobil yandırmaqla əvəzlənib. Güman etmirəm ki, bu tendensiya uzun müddət davam etsin. Sadəcə, bir müddət avtomobil sahibləri daha ehtiyatlı olmalı, maşınlarının daha mükəmməl qorunmasına çalışmalıdırlar. Qısa müddət sonra bu dalğa da səngiyəcək".

❑ **Xalidə GƏRAY**



# Yanmış bina noyabrda sakinlərə təhvil veriləcək

**Mayın 19-da Bakı şəhəri Binəqədi rayonu, Azadlıq prospekti 200/36 ünvanında yerləşən 16 mərtəbəli yaşayış binasında dəhşətli yanğın nəticəsində 15 nəfər dünyasını dəyişdi, 50 nəfər isə xəsarət aldı.**

Baş vermiş faciənin səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə Dövlət Komissiyası yaradılıb.

Həlak olmuş 15 sakinin hər birinin ailəsinə 15 min manat, bina sakini olan 56 ailənin hər birinə isə yanğın nəticəsində zərər dəymiş əmlakına görə ilkin olaraq 20 min manat olmaqla dövlət vəsaiti hesabına birdəfəlik maddi yardım müəyyən edilib.

Hazırda çoxmərtəbəli yaşayış binasında baş vermiş yanğının fəsadlarının aradan qaldırılması ilə bağlı təmir işləri sürətlə davam etdirilir. Məlumatlara görə, artıq binada xeyli işlər görülüb. Təmir ən qısa müddət ərzində tamamlanacaq.

Modern.az saytının məlumatına görə, təmir işləri oktyabr-noyabr aylarınadək sona çatacaq.

# AMEA işçisindən Allah adına gülünc fikirlər

## İlahiyyatçı Bəhruz Camal: "Əkrəm Həsənov AMEA kimi ciddi bir müəssisənin adına da kölgə salır..."



Əkrəm Həsənov

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun böyük elmi işçisi, ilahiyyat üzrə fəlsəfə doktoru Əkrəm Həsənov "Dünyadakı zəlzələlərin və kataklizmaların səbəbi cins şalvar geyinən qadınlardır"- deyən "Taliban" ideoloqu Fəzlur Rəhmanın fikirlərini dəstəkləyib. Bu barədə reaksiya.az-a danışan azərbaycanlı ilahiyyatçı bildirib ki, dünyadakı təbii fəlakətlər və kataklizmlərə qadınların açıq-saçıq geyinməsi, şəriət qaydalarına əməl etməməsi, yüngül həyat tərzi səbəb olur.**

"Görürsünüz ki, son zamanlarda qadınlar daha açıq-saçıq geyinir, əxlaqsızlıq, fahişəlik artır. Bu da dünyada fəlakətlərin artmasına səbəb olur. Əgər kişi qısqancdırsa, Allah daha çox qısqancdır. Bütün təbii fəlakətlər də məhz buna görə baş verir".

Xatırladaq ki, AMEA-nın Əlyazmalar İnstitutunun əməkdaşı Əkrəm Həsənov bundan əvvəl də qalmaqallı fikirlər səsləndirmişdi. O, əvvəl yerin fırlanmadığını, daha sonra isə fırlandığını, ancaq şübhəli fırlandığını bildirmişdi.

**İlahiyyatçı Bəhruz Camal Əkrəm Həsənovun dediklərinin heç bir elmi əsası olmadığını bildirdi:** "Bu, Əkrəm bəyin ilk qeyri-adi çıxışı deyil. O bir dəfə də yerin fırlanmaması barədə sələfi şeyxlərinin gülünc fətvasını dəstəkləmişdi. Əkrəm Həsənovun dəstəklədiyi sələfi şeyxlərindən biri yenə də gülünc bir çıxış və gülünc bir fətva verib. Yəni təbii fəlakətlərin səbəbi, sən, demə qadınların açıq-saçıq geyinməsi imiş. Xüsusən də cins geyinməsi imiş. Əslində bu sözün heç bir elmi qaynağı, əsası yoxdur. İnsan gərək nə dediyinə, nə danışdığına fikir versin. Xüsusən də əgər dediyi və danışdığı din və Allah adınadırsa, burada daha diqqətli olmalıdır. Amma təəssüflər olsun ki, Əkrəm bəy kimi ilahiyyat elmləri üzrə doktorlar nə danışdıqlarını çox güman ki, bilmirlər. Əgər Allah, din barəsində əsaslı məlumatlı olsaydı, Allaha qısqanclıq ittihamı vurmazdı və deməzdi ki, kişilər qısqancdırsa, Allah da qısqancdır. Allah mini yubka geyinən qızı kimə və niyə qısqanır? Heç olmasa desəydi ki, "Allahın qəzəbindən doğur", yenə buna inanmaq olardı. Çünki bəzi hədislərdə və yaxud Quran ayələrinin məntiqində təbii fəlakətlərin səbəbi günahın artmasıdır. Digər tərəfdən də təbii fəlakətlərin hamısının təbii səbəbləri var. Qeyri-təbii səbəblər Allahın hökmünü və qəzəbinə bağlı məsələlərdir ki, həmin səbəblərdən hansısa təbii fəlakətlər camaata üz tutur. Bunun nümunələri Quranda da, hədislərdə də var. Bir qövm əgər günahda həddini aşarsa, Allah-Təala həmin qövmü, həmin məntəqəni təbii fəlakətlərə qərq edib məhv edər. Amma təbii fəlakətləri konkret olaraq gətirib açıq-saçıq geyinən və ya şalvar geyinən qadınlarla əlaqələndirmək çox gülünc, heç bir elmi əsası olmayan məsələdir".

**İlahiyyatçı Əkrəm Həsənovun etdiyi çıxışlar barədə ölçü götürməyin vacib olduğunu da bildirdi:** "Doğrudan da çox üzücü haldır ki, AMEA kimi ciddi bir idarədə belə təfəkkürü olan insanlar baş elmi işçi kimi fəaliyyət göstərir. Belə şəxslərin AMEA-da fəaliyyətləri AMEA kimi ciddi bir müəssisənin adına da kölgə salır. Məncə, AMEA Əkrəm Həsənov barədə ölçü götürməlidir. Çünki artıq bu, onun birinci belə qeyri-adi çıxışı və məmləkətimizə qeyri-ənənəvi məzhəb daşıyıcılarından olan sələfi şeyxlərinin sözlərini dəstəkləməsi ilk hal deyil. Buna görə də AMEA gərək bir az diqqətli olsun".

❑ **Günel MANAFLI**



# İspaniyada gecəsi 30 min avroya dincələn azərbaycanlı kimdir?

**Fransanın məşhur telekanallarından birində "Enquete exclusive" (xüsusi araşdırma) verilişi efirə gedərkən azərbaycanlılardan bəhs edilib. Modern.az xəbər verir ki, verilişdə İspaniyanın cənubunda yerləşən Marbella kurort şəhəri haqda maraqlı süjet hazırlanıb. Bura gələn zənginlər, ulduzlar barədə danışılıb, onların necə dincəldiyi göstərilib.**

Verilişdə jurnalist kurort şəhərindəki bir villa haqda məlumat verib. Villa Del Mar adlı bu malikanədə bir gecənin qiymətinin 30 min avro olduğu bildirilir.

Villanı jurnalistlərə göstərən sahibi orada dincələnlərin olduğunu və yenicə getdiklərini deyib, ancaq onlar darvazadan çıxan zaman özlərini və avtomobillərinin nömrələrini çəkməməyi xahiş ediblər.

Villa sahibi yalnız onu qeyd edib ki, bu müştərilər azərbaycanlılardır və burada 12 gün qalıblar.

YENİ MÜSAVAT
Son səhifə
N 147 (6175) 8 iyul 2015




## Bu ölkədə qadınların təbii doğuşuna imkan vermirlər

Braziliyada qeysəriyyə əməliyyatlarının sayını azaltmaq üçün yeni qanun qüvvəyə minib. Bu brədə "BBC News" xəbər verib. Hakimiyyət ölkədə bu əməliyyatlarla bağlı ciddi artım olduğu üçün belə qadağaya ehtiyac duyub. Hazırda Braziliyanın özəl klinikalarında qeysəriyyə əməliyyatı ilə uşaq dünyaya gətirənlər ümumi doğumların 85 faizini təşkil edir. Dövlət səhiyyə müəssisələrində isə bu rəqəm 45 faizdir. Yeni qaydalara görə, həkimlər pasiyentlərə qeysəriyyə əməliyyatının vacibliyini əsaslandırmalı və gözləyən risklərlə bağlı məlumat verməlidir. Rio-de-Janeyro Federal Universitetinin professoru Pedro Oktavio de Britto Pereyra bildirib ki, qadınların əməliyyata razılıq verməsinin səbəbi sadədir. Bu halda onlar xəstəxanalarda özlərinə ən rahat yeri qazanırlar. Professorun sözlərinə görə, təbii yolla doğum etmək istəyən qadınlar özəl klinikalarda yer çatışmazlığı ilə qarşılaşır. Onlara bildirilir ki, artıq əməliyyat üçün müraciət edən qadınlara görə palatalarda yer qalmayıb. Xəstəxanalara da qeysəriyyə əməliyyatı təbii doğuşdan daha sərfəlidir. Belə ki, bu halda əməliyyat pulu, üstəgəl xəstəxanada daha çox qalmaq sonuncuların büdcəsinə fayda verir. Dolayısı ilə Braziliya xəstəxanaları qadınların öz körpəsini təbii yollarla dünyaya gətirməsinə imkan vermirlər.

## Dilənçinin lüks maşını

Türkiyənin qərb rayonlarından gəlib Hakkaridə dilənən ailənin bahalı avtomobili yerlilərin diqqətini çəkib. Musavat.com-un məlumatına görə, sakinlər avtomobilin şəklini çəkərək sosial şəbəkədə paylaşıb. Ramazan ayı başlayandan dilənçiliklə məşğul olmaq üçün Hakkariyə gələn suriyalı dilənçilərin sayı günü-gündən artır. Bəzi özlərini suriyalı kimi təqdim edən dilənçilərin isə suriyalı olmadığı məlum olub. Gün boyu küçə-küçə gəzən yerli dilənçilərin maddi vəziyyətinin pis olmadığı qeyd edilib. Yerli sakinlər isə torpaq bir evdə qalan, axşamlar uşaqların dilənməyə göndərən bir ailənin avtomobilinin şəklini çəkib. Foto sosial şəbəkədə müzakirələrə səbəb olub.



## Çayları açıq göstərir deyə, küçədəki işıq lampalarını söndürür

Türkiyənin Ərzurum şəhərində ağlagəlməz bir olay yaşanıb. Bir çayxana sahibi müştərilərini aldatmaq üçün qəribə üsula baş vurub. Dəmli, tünd çayları açıq göstərdiyi üçün küçə lampalarını ümumi elektrik xəttinə müdaxilə edərək söndürən çayçı zaman-zaman şəhəri də qaranlığa qərq edirmiş. Çayxananın yerləşdiyi küçədə tez-tez qaranlıq olmasından, küçə işıqlarının yanmamasından narazı qalan sakinlər polisə müraciət edəndən sonra bu hal ortaya çıxıb. Araşdırma nəticəsində məlum olub ki, bu, çayxana sahibinin əməlidir. O, müştərilərin "niyə çaylar tünd deyil" şikayətinin qarşısını almaq üçün belə etdiyini polisə açıqlayıb. Şərti adı T.R. olaraq göstərilən çayxana sahibi müştərilərin narazılığını azaltmaq üçün başqa çıxış yolu görmədiyini deyib: "Çayxananın yerləşdiyi yerdə işıq diрəkləri var, axşamlar par-par yanır. Nəticədə mənim xoruz quyruğu dəmlənmiş çaylarım bulanıq su kimi görünür. Hər gün müştəri narazılığına eyni qaydada cavab vermək isə yorucudur. Ona görə də çıxış yolu kimi lampaları bu formada söndürmək qərarına gəldim".

Çayxana sahibinə inzibati cəza veriləcəyi və ya çayxanasının bir neçə gün qapadılacağı gözlənilir.





## Hamı bədəninə nöqtəli vergül işarəsini vurdurur

Dünya miqyasında sürətlə bir dəb yayılıb. Bu, insanların öz bədəninə nöqtəli vergül işarəsini tatuaj vurdurmasıdır. Bu aksiyanın məqsədi isə insanın əqli sağlamlığına diqqət çəkməkdir. Sosial media istifadəçiləri nöqtəli vergül (;) şəklindəki tatuirovkaları sosial mediadakı hesabları vasitəsilə paylaşırlar, bu simvolun daşıdığı məna isə həyatın davamlılığıdır. Xatırladaq ki, sözügedən layihə 2013-cü ildə başlanıb. Heç bir mənfəət güdməyən layihə intihar, davranış pozğunluğu, özünə zərər vermə kimi situasiyalara qarşılıq olaraq insanlara psixoloji dəstəkdir. Daha bir məqam: əsasən yazarların istifadə etdiyi bu durğu işarəsi onların cümləni istənilən zaman yekunlaşdıracağı mənasını daşıyır. İnsanların da yaşadıqları ağrılardan sonra bu nöqtəyə gələ bildiyi situasiyalarda sözügedən simvol özündə mübarizəni əks etdirir.




**QOÇ** - Əsas vaxtınızı istirahətə yönəltməyə çalışın. Hər hansı fiziki iş səhhətinizə mənfi təsir göstərə bilər. Bu gün intim əlaqəyə girmək, ağır yük qaldırmaq sizin üçün yolverilməzdir.

**BUĞA** - O qədər də ürəkaçan olmayan maddi durumunuzu dirçəltmək üçün müəyyən imkanlar qazanacaqsınız. Büdcənizi artırmaq istiqamətində dəstək ala bilərsiniz. Kobudluğa yol verməyin.

**ƏKİZLƏR** - Tərəfdaşlarınızla aranızda müəyyən mübahisələr olsa da, özünüzü təmkinli aparmalısınız. Deyilən hər sözə ciddi yanaşmayın. Yaxşı olar ki, bütün gücünüzü fəaliyyətə yönəldəsiniz.

**XƏRÇƏNG** - Nə qədər ki "hakimiyyətdə" öz bürcünüzdür, işlərinizə hopan gərginlik azalmağa doğru gedəcək. Saat 15-dən sonra isə şəxsi işlərinizdə nəzərəçarpacaq irəliləyişlər baş verəcək.

**ŞİR** - Deyəsən, Göy qübbəsi əzablarınızı görüb sizə güzəştə getmək fikrindədir. Bu səbəbdən də əksər məsələlərdə yardımçınız olmaqdadır. Səfərə çıxmaq və varlanmaq ehtimalınız da var.

**QIZ** - Astroloji göstəricilər günün birinci yarısını müəyyən qədər gərgin tərzdə başa vuracağınızı bəyan edir. Sonrakı müddətdə isə ətrafınızda olanların rəğbətini qazanacaqsınız. Bu gün kollektivdən ayrı qalmayın.

**TƏRƏZİ** - Saat 14-ə qədər hər bir görüşü təxirə salmağınız məsləhətdir. Əks təqdirdə gözlədiyiniz uğurlardan uzaq düşəcəksiniz. Özünə qapılmağa da dəyməz, günün ikinci yarısını gözləyin.

**ƏQRƏB** - Hər mənada uğurlu təqvim hesab etmək olar. İstər şəxsi büdcəni artırmaq istiqamətində, istərsə də işgüzar sövdələşmələrdə irəliləyişləriniz mümkündür. Bu gün savablarınızı çoxaldın.

**OXATAN** - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu amil daha çox sevgi zəminində reallaşacaq. İş yerində isə həmkarlarınızla mübahisələriniz gözlənilir. Çılğınlıqdan uzaq olun.

**OĞLAQ** - Bürcünüzdəki planetar mənzərə neqativ olsa da, təpər tapıb qarşınıza çıxan maneələri dəf edə biləcəksiniz. Günün ikinci yarısında yeni işgüzar əlaqələr yaratmaq üçün əzmkarlığınızı artırmalısınız.

**SUTÖKƏN** - Olduqca uğurlu təqvimdir. Ulduzlar bir tərəfdən əlverişli təkliflər alacağınızı, digər tərəfdənsə maliyyə uğurlarına nail olacağınızı bildirir. Hər mənada nikbin olmağa əsas var.

**BALIQLAR** - Ulduzlar yalnız qarşılıqlı əlaqələr zəminində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Bu baxımdan gəzintiyə çıxmaq, qonaq getmək səmərəlidir. Riskli işlərdən yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən qara körpəsi



Bugünlərdə sosial mediada maraqlı bir foto paylaşılıb. Fotodakı körpənin dünyanın ən qara rəngli körpəsi olduğu bildirilir. İddia hələ sübut edilməmiş olsa da, körpənin Cənubi Afrikada dünyaya gəldiyi bilinir. Fotonun həqiqi bir qaynağa aid olub olmaması isə hələ müzakirə mövzusudur. Mahatma Qandi Memorial Xəstəxanasında dünyaya gəldiyi iddia edilən qarayanız körpə indidən bir çox ölkələrin xəbər buraxılışlarının mövzusuna çevrilib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Nazim SABİROĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300